# Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

22
AVQUST
2019-cu il
№ 146 (4044)

Qiymətİ
40 qəpik

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

səh. 3

# «SƏNƏ SIĞINACAQ VERƏRİK, ƏVƏZİNDƏ AZƏRBAYCAN DÖVLƏTİNƏ QARŞI SOSİAL ŞƏBƏKƏDƏ FƏAL OLMALISAN»...



səh. 5

## Mərhum pilotun qohumları Əli Kərimlini öz matəm mərasimlərində niyə görmək istəmədilər...

Radikal mühacirlərin xaricdə dalbadal açdıqları internet TV-lər - Azərbaycanın daxili işlərinə təhlükəli müdaxilə əməliyyatları hazırlanır

səh. 3

ABŞ-ın Qarabağ siyasəti Ermənistanda daha çox narahatlıq yaratmağa başlayır

səh. 6

"Relaks" olayları - hakimiyyətin və radikal müxaliflərin siyasətini müqayisə etməyə daha bir fürsət...

səh. 7

"Facebook" müxalifət-hakimiyyət polemikalarında açıq-aşkar müxalifətin tərəfini saxlamağa başlayır

səh. 4

Yeni Hindistan - Pakistan müharibəsi hazırdı - Kəşmirdə hind qoşunlarının sayı 500 minə çatdı

səh. 2

Azərbaycanın aqrar sektorunda inqilabi gediş...

səh. 12



«Ərəb Xədicə», «Vaşinqton Post»un «ayaqyalın» məntiqi və Kolin Pauelin məşhur fotosu...

səh. 8-9



Rusiya Paşinyana qarşı daha bir siyasi nümayiş göstərdi - Poqosyan təhvil verilmədi...

səh. 7

İrəvanda 2008-ci il 1 mart hadisələrinin dəhşətli detalları üzə çıxır

səh. 10

səh. 9

Xaricdəki mühacir azərbaycanlı radikalların öz gücləri ilə internet TV açmaq imkanları - pərdəarxası qüvvələri ifşa edən suallar...



səh. 5

Amulsar mədəni tam dayandırılsa, Paşinyanın iqtisadi durumu necə olacaq...



səh. 13

Məhərrəmlikdə Azərbaycanı yad islamçı cərəyanların müdaxiləsindən qorumaq üçün mühüm addım...



səh. 14

Ermənilər məşhur Memar Sinana da murdar əllərini uzatdılar



səh. 15

Davarın qiyməti hiss olunan qədər bahalaşır, ancaq sayı aydan-aya azalır - Azərbaycanda nə baş verir...





## MiQ-29 təyyarəsinin pilotu dəfn edilib

**Plana uyğun olaraq gecə vaxtı təlim-məşq uçuşları keçirən zaman qəzaya uğrayan Hərbi Hava Qüvvələrinin MiQ-29 təyyarəsinin pilotu polkovnik-leytenant Rəşad Atakişiyev dəfn edilib.**

"Trend"in məlumatına görə, R.Atakişiyev II Fəxri xiyabanda torpağa tapşırılıb. Dəfn mərasimi zamanı Azərbaycanın dövlət himni səsləndirilib, havaya yaylım atəşi açılıb. Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Ramiz Tahirov pilotun tabutunun üzərinə sərilmiş Azərbaycanın dövlət bayrağını onun həyat yoldaşı Könül Hüseynovaya təqdim edib.

## Yeni Hindistan - Pakistan müharibəsi hazırdı - Kəşmirdə hind qoşunlarının sayı 500 minə çatdı

**Hindistanla Pakistan arasında münasibətlər Kəşmir ətrafında baş verən son hadisələrə görə daha da gərginləşir. Baki-xeber.com xarici mediaya istinadən xəbər verir ki, Pakistan silahlı qüvvələri iki gün əvvəl sərhəddə atəşkəsin pozulmasına cavab olaraq 5 Hindistan əsgərinin öldürüldüyünü bildirib.**

Kəşmirin Hindistanın nəzarətində olan hissəsində də hindli əsgərlərlə yerli sakinlər arasında silahlı toqquşmalar baş verir. Son toqquşmalarda biri polis, digər yerli sakin olmaqla iki nəfər ölüb. Son məlumatlara görə, Hindistanın Cammu Kəşmir bölgəsinə 125 min əlavə paramilis qüvvələri göndərib. "The News" adı açıqlanmayan hərbi mənbəyə istinadən məlumat verir ki, bölgəyə göndərilən 125 min əlavə qüvvədən sonra Cammu Kəşmirdə Hindistan təhlükəsizlik qüvvələrinin sayı 500 minə çatdırılıb. Bu arada, Hindistan hökuməti Cammu Kəşmirin paytaxtı Srinaqarda təxminən 200-ə yaxın məktəbin açıldığını elan etsə də, siniflər boş qalıb. Bölgədəki ailələrin, məktəbə gedən uşaqlarla əlaqə qura bilməyəcəklərinə görə, telefon və internet kəsintisinə son qoyulana qədər uşaqları evdə saxlamağa üstünlük verdikləri bildirilir. Ailələr hazırki vəziyyətdə uşaqların məktəbə göndərilməsini onların həyatı üçün təhlükə hesab edir.. Onlar bölgədəki çox sayda uşağın hərbçilər tərəfindən saxlandığına və hadisələrdə çox sayda insanın yaralandığına diqqət çəkir.




## «Tarixi Şəxsiyyətlər» jurnalının növbəti sayı Şeyxülislam Allahşükür Paşazadənin 70 illiyinə həsr olunub

# Əli Əhmədov pilotun həlak olmasından siyasi dividend qazanmağa çalışan müxalifləri insanlığa yaraşmayan hərəkətlər etməkdə suçladı



**Qəzaya uğrayan Hərbi Hava Qüvvələrinin MiQ-29 təyyarəsinin pilotu polkovnik-leytenant Rəşad Atakişiyevin həlak olması bizim hamımızı kədərləndirir. Ordumuz üçün gərəkli olan bir hərbçinin həlak olması faciədir.**

Ancaq müxalifətin bundan hansısa siyasi məqsədlər üçün istifadə etməsi qətiyyətlə yolverilməzdir. Bunu "Trend"ə Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının sədr müavini - icra katibi Əli Əhmədov deyib.

Ə.Əhmədov bildirib ki, bu, hər şeydən əvvəl bir ailənin faciəsidir: "Ondan kiminsə siyasi məqsədlə istifadə etməyə çalışması insanlığa yaraşmayan hərəkətdir. Müxalifət bu hadisədən özü üçün dividend qazanmaq istəyirsə, mən bunu insan ləyaqətinə sığmayan hərəkət hesab edirəm. Digər tərəfdən isə bu formada ucuz təbliğat aparmaq heç bir siyasi təşkilata başucalığı gətirməz. Mərhumun ailəsi bu faciədən siyasi məqsədlə istifadə edilməsini aydın şəkildə dərk edir. Hətta məcbur qalaraq müraciət yayıb ki, siyasi dividend məqsədilə buraya heç kim gəlməsin. Bu bəyanatın özü də ailə üçün çox ağırdır. Təsəvvür edin ki, ailə hansı vəziyyətdə belə bir bəyanatı səsləndirməyə məcbur olub".

Baş nazirin müavini vurğulayıb ki, radikal müxalifət insanların qəlbində nifrət hissi yaradan davranışlara yol verir və bununla özlərinə hörmət qazanmaq istəyir: "Siyasətçi hörməti bu yolla qazanmaz. Siyasətlə məşğul olan insan, hər şeydən əvvəl elə olmalıdır ki, xalq ona inanmış olsun. Özünü bu cür vətənpərvər göstərməyə çalışmaqla hörmət qazanmaq mümkün deyil. Çünki hər kəs bilir ki, bu, tamamilə riyakarlıqdır, qeyri-səmimi bir hərəkətdir və bununla siyasi nüfuz qazanmaq, siyasi dividendlər əldə etmək mümkün deyil. Mən bunu qətiyyətlə pisləyirəm. Bu, birinci hal deyil ki, müxalifət ucuz vasitələrlə özünə hörmət qazanmağa çalışır. Ancaq məsələ o həddə çatıb ki, bir ailə müraciət edir: "mənim yasımı, kədərimi siyasiləşdirməyin".

Qeyd edək ki, həlak olan pilot Rəşad Atakişiyevin yaxını Qabil Hüseynli vida mərasimindən müxtəlif siyasi məqsədlər üçün istifadə etmək arzusunda olan şəxslərə müraciət ünvanlayıb:

"Ailəmiz çox çətin, ağır və kövrək bir dönəmdən keçir. Xalqımızın sevimlisi, rəşadətli pilotumuz Rəşad Atakişiyevi itirmişik. Mərhumun dəfni ilə bağlı həyata keçirilən vida mərasiminə dövlət öz dəstəyini göstərir. Müəyyən siyasi partiyaların və qrupların tədbirə qatılmaq və mərasim vasitəsilə siyasi dividend əldə etmək istəkləri barədə məlumatlar əldə etmişik. Həmin şəxslərdən artıq dərəcədə xahiş edirik ki, vida mərasiminə qatılmasınlar, bu ağır günümüzdə bizi başa düşsünlər".

# Nazir Vilayət Eyvazov Azərbaycan DİN-lə əlaqələr qurmuş ilk Avropa dövlətinin səfirini qəbul etdi



**Avqustun 21-də Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov Avstriyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Bernd Aleksander Bayerlini qəbul edib.**

DİN mətbuat xidmətinin məlumatına görə, nazir Azərbaycanla Avstriya arasında əlaqələrin gündən-günə inkişaf etdiyini diqqətə çatdıraraq, iki ölkənin Daxili işlər nazirlikləri arasında sıx işgüzar əlaqələrin mövcudluğunu, bu əməkdaşlığın beynəlxalq hüquqi sənədlər əsasında həyata keçirildiyini bildirib. Avropa ölkələrinin polis təşkilatları arasında Avstriya DİN-in ölkəmizin anoloji qurumu ilə ikitərəfli əlaqələr quran ilk orqan olduğunu xatırladan nazir polis təlimi və ixtisasartırma sahəsində iki mühüm sənədin imzalandığını, qarşılıqlı səfərlərin əməkdaşlığın daha da dərinləşməsinə təkan verdiyini xüsusi qeyd edib.

Daxili işlər naziri Vyana şəhər polisindən olan nümayəndələrin Bakıda keçirilmiş "Avrovizyon" mahnı müsabiqəsi, I Avropa Oyunları ərəfəsində Azərbaycana səfər etmələrindən, genişmiqyaslı tədbirlər zamanı ictimai təhlükəsizliyin təmini sahəsində öz təcrübələrini bölüşmələrindən məmnunluğunu bildirib.

O, problemlərdən danışarkən transmilli mütəşəkkil cinayətkarlığın əsas növlərindən olan beynəlxalq terrorçuluq, narkotiklərin qanunsuz dövriyyəsi, insan alveri və qanunsuz miqrasiyanın diqqət mərkəzində dayandığını və belə qlobal xarakterli təhlükəli hallarla effektiv mübarizədə səylərin birləşdirilməsinin zəruriliyini vurğulayıb.

Səfir Bernd Aleksander Bayerl səmimi qəbula və məlumatlara görə minnətdarlığını bildirib, hüquqmühafizə fəaliyyəti sahəsində təcrübə və məlumat mübadiləsinin əhəmiyyətini, transmilli mütəşəkkil cinayətkarlıqla mübarizədə Azərbaycanın hüquq mühafizə orqanları, o cümlədən Daxili İşlər Nazirliyi ilə əməkdaşlıqda maraqlı olduqlarını qeyd edib.

Ölkələrimiz arasında iqtisadi, siyasi və digər sahələrdə münasibətlərin günü-gündən inkişaf etdiyini vurğulayan diplomat fəaliyyəti dövründə müvafiq dövlət qurumları, o cümlədən iki dost dövlətin Daxili İşlər nazirlikləri arasındakı əlaqələrin daha da genişlənməsinə öz töhfəsini verəcəyini diqqətə çatdırıb.

Səmimi və işgüzarlıq şəraitində keçən görüş zamanı qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər də müzakirə olunub.

# "Sənə sığınacaq verərik, əvəzində Azərbaycan dövlətinə qarşı sosial şəbəkədə fəal olmalısan"...

**Hətta müxalifət partiyalarının fəalları belə bir faktı etiraf edirlər ki, xaricdə müxalifətçi kimi status alıb, orada yaşayan, indi də klaviatura arxasında şirə dönüb Azərbaycan hakimiyyəti ilə "siyasi mübarizə" apardığı görüntüsünü yaradan şəxslərin böyük əksəriyyətini tanımırlar.**




Doğrudan da çox qəribə mənzərədir. Baxırsan ki, kifayət qədər yaşı olan birisi xaricdən odlu-alovlu çıxış edir. Bir qədər maraqlandıqda məlum olur ki, guya həmin adam burada müxalif olduğu üçün sıxışdırılıb, nəticədə xaricə sığınmağa məcbur olub. Partiyasının adını da öyrəndikdən sonra adam barədə soraqlaşırsan, personanı tanıyan olmur ki, olmur. Azərbaycandakı müxalif partiyaların böyük əksəriyyətinin mühacir biznesi ilə məşğul olduğuna dair çoxlu sayda təkzibedilməz fakt mövcuddur. Belə adamların saxta arayışla xaricə müxalifətçi qiyafəsində sığınması mümkündür. Bunu hətta radikal müxalifət partiyalarının nümayəndələri belə bir-birilə söz duelində təsdiqləyiblər.

Maraqlıdır, saxtakarlıqla bağlı bu qədər səhih informasiyalar olduğu halda, niyə bəzi Qərb ölkələri həmin saxta müxalifətçilərə sığınacaq verməkdə maraqlıdırlar?

Araşdırmalar göstərir ki, məhz saxta mühacirlərin sığındığı ölkələr onlardan Azərbaycana qarşı bir təzyiq qrupu formalaşdırmaqda maraqlıdırlar. Saxta mühacirlərin qabağına dəlillər qoyulur ki, sizi Avropada saxlamaq üçün əsas yoxdur. Həmin ölkədən deport olunmaqdan qorxan mühacir çalınan istənilən havanı oynamağa məcbur olduğunu bildirir. Azərbaycandan qaçan şəxsin qabağına konkret öhdəlik qoyulur ki, yaşayış icazəsi almaq istəyirsənsə müxalifliyini sosial şəbəkələr vasitəsilə sübut etməlisən. Bu minvalla da saxta müxalifətçi siyasi proseslərin episentrində görünməyə başlayır. Hesabat verməkdə üçün kəskin paylaşımlar etməyə məcbur qalır. Bu da bizim tanımadığımız, heç vaxt siyasi fəaliyyətlə məşğul olmayan adamların gündəmə gəlməsini şərtləndirən faktora çevrilir.

Bu yaxınlarda redaksiyamıza müraciət edən və adının çəkilməsini istəməyən bir xanım bu etirafı bizimlə bölüşmüş oldu. O bildirdi ki, ortabab bir dövlət vəzifəsində işləyir. Günlərin birində rayon rəhbərliyi onu çağırıb deyib ki, sənin oğlun xaricdə hakimiyyətə qarşı sərt yazılar yazır, paylaşımlar edir. Qadın deyir ki, oğlunun uşağını müalicə etdirmək üçün xaricə getdiyini bilirmiş. Vətənə gec gəlməyinin səbəbini də onunla izah ediblər ki, uşağın müalicəsi uzun çəkir. Oğlunun radikal paylaşımlar etdiyini görən ana başı alovlu şəkildə xaricə zəng edir. Oğlu etiraf edir ki, onu indiyə qədər aldadırmış. Avropada qalmaq üçün sığınacaq istəyib, bir müddət sonra onu çağırıb deyiblər ki, yaşayış izni almaq üçün elə bir ciddi səbəbi yoxdur. Ölkəyə gəlmək istəməyən gənc ailə başçısına sosial şəbəkələrdə Azərbaycan dövlətinə qarşı aktivlik tələb edilib, o da bununla razılaşmağa məcbur qalıb. Ana deyirdi ki, uzun müddətdir YAP-ın üzvüdür, seçki komissiyasında fəal şəkildə təmsil olunub, indi oğlu onu çıxılmaz vəziyyətdə qoyub. Əslində isə ananı oğlu deyil, onun sığınmaq istədiyi, demokratiyadan dəm vuran ölkə pis vəziyyətə salmış olub.

**Çünki, ən azından, siyasi fəaliyyəti və ölkədən qaçmaq üçün ciddi səbəbi olmayan şəxsi Azərbaycana geri qaytarmalı idi. Prosesdən aydın görünür ki, saxta radikal mühacirlərin formalaşmasında Avropa ölkələrinin rolu saxta arayış satan partiyalarımızdan heç də az deyil.**

***Məhəmmədəli QƏRİBLİ***

# Radikal mühacirlərin xaricdə dalbadal açdıqları internet TV-lər - Azərbaycanın daxili işlərinə təhlükəli müdaxilə əməliyyatları hazırlanır

**Son vaxtlar mühacirət adı ilə ölkəni tərk edib xaricə sığınan bəzi şəxslərlə bağlı maraqlı tendensiya müşahidə edilir. Hiss olunur ki, onlar planlı şəkildə hansısa proseslərə doğru istiqamətləndirilirlər. Son prezident seçkiləri ərəfəsində məhz xaricdəki radikal mühacirlərdən ibarət dəstəyə söyüş söymək kimi rol verilmişdisə, hazırda bu fəaliyyət növünü bir qədər dəyişiblər.**

## *Aqşin Əliyev: "Elələri var ki, konkret olaraq əhalini itaətsizliyə və inqilaba çağırır"*




Söyüş layihəsini təşkil edənlər gördülər ki, həmin mübarizə metodu Azərbaycan üçün effektli deyil. Çünki bizim mental dəyərlərimizdə söyüş söyən adama birmənalı olaraq mənfi münasibət bəslənir. Planın uğursuzluğa düçar olduğunu hiss edənlər indi formatı bir qədər dəyişməyə üstünlük verirlər. Radikal mühacirlərin bəzilərinə internet TV-lər açmaq məsləhət görülür. Müşahidələr göstərir ki, həmin proses çox sürətlə həyata keçirilir. Hətta jurnalistika və siyasətlə indiyə kimi yaxından və uzaqdan əlaqəsi olmayanlar da bu işə istiqamətləndirilir. Həmin TV-lərin başlıca fəaliyyət istiqaməti radikal məzmunlu çağırışlar etmək, hakimiyyətə qarşı ən barışmaz mövqedə olan siyasiləri öz efirlərinə dəvət edib, onların monoloqlarını Azərbaycan vətəndaşına çatdırmaqdan ibarətdir. Bəllidir ki, bu cür fəaliyyətlər müəyyən maddi vəsait tələb edir. Hansısa mühacirin sığındığı ölkədən aldığı cüzi yardımla belə miqyaslı işləri görmək qeyri-mümkündür. Bu da həmin TV-lərin yaradılmasında maraqlı olan qüvvələrin mövcudluğuna şübhə yeri qoymur. Yəni mahnını sifariş edən başqalarıdır, bizim mühacirlər isə bu prosesdə icraçı rolunu oynayırlar.

Məlumdur ki, Azərbaycanın daxili işlərinə müdaxilə cəhdləri, ölkəyə müxtəlif üsullarla olunan təzyiqlər əsasən mühüm hadisələr ərəfəsində daha geniş vüsət almağa başlayır. Biz bunu ölkəmizin evsahibliyi etdiyi mötəbər tədbirlər ərəfəsində dəfələrlə görmüşük. Hazırda da Azərbaycan mühüm tədbirlər və hadisələrin həyata keçməsinin astanasındadır. Qısa müddətdən sonra ölkədə parlament seçkiləri keçiriləcək, həmçinin, Azərbaycanın təşəbbüsü ilə reallaşan TANAP layihəsinin tam istifadəyə veriləcəyi gözlənir. Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycana qarşı daimi pressinq fürsətini gözləyən qüvvələrin bu il fəallaşacağına şübhə yeri qalmır. Budəfəki təzyiq vasitəsi kimi isə radikal müxaliflərin idarə etdiyi və sayı günügündən artan internet televiziyalarının seçildiyi sezilir.

Ekspert Aqşin Əliyev "Bakı-Xəbər"ə bildirdi ki, xaricdən idarə olunan internet televiziyalarının fəaliyyətinə, apardıqları təbliğata baxmaq onları məqsədlərinin nədən ibarət olduğu haqda ilkin rəyə gəlməyə kifayət edir: "Həmin internet TV-lər heç də obyektiv təbliğatla məşğul olmurlar. Əsasən radikal dairələrin mesajlarını cəmiyyətə çatdırmaq yolunu tutublar. Elələri var ki, konkret olaraq əhalini itaətsizliyə və inqilaba çağırır. Bir sözlə, cəzasızlıq mühitindən istifadə edərək, Azərbaycanın qanunvericiliyi ilə uzlaşmayan təbliğatla məşğul olurlar. Onların öz gücləri ilə bu işin öhdəsindən gələ bilməsi inandırıcı görünmür. Fəaliyyətlərini izlədikdə sanki vahid mərkəzdən idarə olunduqlarına dair rəy formalaşır. Təbii ki, bu yolla Azərbaycanı istəməyən bəzi dairələr ölkəmizə təzyiq metodundan istifadə etmək istəyirlər. Bütün bunların bir adı var: Azərbaycanın daxili işlərinə kobud müdaxilə cəhdləri. Bununla bağlı həmin mühacirlərin fəaliyyət göstərdiyi ölkələrə müraciət olunmalıdır. Gəlin görək, Azərbaycandan hansısa Avropa ölkəsi ilə bağlı belə radikal çağırışlar olsa, analoji fəaliyyətə üstünlük verən internet TV-lər fəaliyyətə başlasa, onların reaksiyası necə olar? Təbii ki, qəbul etməzlər. Özləri üçün rəva bilmədikləri qanunsuzluğun bizə yönəlməsinə də imkan verməməlidirlər".

*"Cəzasızlıq mühitindən istifadə edərək, Azərbaycanın qanunvericiliyi ilə uzlaşmayan təbliğatla məşğul olurlar"*

***Məhəmmədəli QƏRİBLİ***

**Açıq platforma olan sosial şəbəkələr bir sıra hallarda qərəzli fikirlərin, bu şəkildə aparılan polemika və müzakirələrin daha geniş yayılmasına şərait yaradır. Müasir dövrdə siyasi polemikaların, müxalifət və iqtidar arasındakı fikir ayrılıqlarının geniş yer aldığı "Facebook" sosial şəbəkəsində qəribə bir tendensiya müşahidə edilir.**

# "Facebook" müxalifət-hakimiyyət polemikalarında açıq-aşkar müxalifətin tərəfini saxlamağa başlayır

***Müşfiq Ələsgərli:** "Azərbaycan hökumətinə qarşı da sosial şəbəkələrdə müxtəlif çirkin kampaniyalar aparılır, "Facebook" və digər sosial şəbəkələr mənfi təmayüllərin fikirlərinin daha geniş şəkildə yayılmasına şərait yaradırlar"*

Bu da onunla bağlıdır ki, Facebook"da müxalifət və hökumət təmsilçiləri arasında aparılan müzakirələrdə hökumətin əleyhinə olan fikirlərin, şərhlərin, paylaşımların yayımına heç bir məhdudiyyət qoyulmur, əksinə, dövlətin, hökumətin, iqtidarın əleyhinə olan fikirlərə, şərhlərə daha geniş meydan verilir. Məsələn, hökumətin xeyrinə, onun maraqlarının müdafiəsi ilə bağlı bir qədər artıq paylaşım olanda "Facebook" dərhal bu paylaşımların yayılmasına müxtəlif vasitələrlə məhdudiyyət qoyur. Bir çox hallarda bu tip paylaşımlar bloklanır, bu da sözügedən paylaşımların daha çox istifadəçiyə çatdırılmasına əngəl yaradır. Lakin hökumət əleyhinə edilən çağırışlar, dini radikalizmlə, irqi ayrıseçkiliklə, millətlər və xalqlar arasında nifaq toxumu əkməyə, dövlətləri, cəmiyyətləri içindən silkələməyə hesablanan paylaşımlar heç zaman bloklanmır, əksinə, onlar açıq şəkildə reklam edilir.

Gizlin deyil ki, müxtəlif dövlətlərdə baş verən hakimiyyət çevirilişləri, çaxnaşmalar, siyasi qarşıdurmalar əsasən "Facebook" və digər sosial şəbəkələrdən idarə olunub. Bəzi ekspertlər "Ərəb baharı"nın da "Facebook"dan idarə olunduğunu deyirlər.

Ekspertlər hesab edirlər ki, "Facebook" və digər sosial şəbəkələri idarə edən qüvvələr bundan çox zaman hakimiyyətlərin əleyhinə istifadə edirlər. Bu sosial şəbəkəni pərdə arxasından idarə edən qüvvələrin müxalif fikirlərin yayılmasında daha çox maraqlı olduğunu deyən ekspertlər bildirirlər ki, onlar hakimiyyəti təqdir edən paylaşımları məqsədli şəkildə bloklayırlar. Bir sıra hallarda iqtidar- müxalifət polemikasında iqtidar tərəfdarlarının yazdıqları rəylər də gizlin bir "əl" tərəfindən silinir, müxalifətin maraqlarını müdafiə edən rəylərə isə qətiyyən toxunulmur.

Bu gün Azərbaycanda radikal müxalifət düşərgəsinə mənsub olan insanların və xaricdə oturub Azərbaycan hakimiyyətinə qarşı qarayaxma kampaniyası aparan kəsimlərin hakimiyyətə qarşı öz çirkin niyyətlərini büruzə vermələri üçün "Facebook" tərəfindən geniş şərait yaradılıb. Azərbaycanı söyən, pisləyən qüvvələrin paylaşımlarının bloklanmaması, məhdudlaşdırılmaması bunu deməyə əsas verir ki, bu sosial şəbəkə özü polemikalarda açıq-aşkar müxalifətin tərəfdarı kimi görsənir.




*"Azərbaycanla, eləcə də digər ölkələrlə bağlı haqlı informasiyalar çox yayılan, təbliğ olunan kimi "bu bir siyasi kampaniyadır" deyib yasaqlayırlar"*

Tanınmış media eksperti Müşfiq Ələsgərli məsələni "Bakı-Xəbər"ə şərh edərkən bildirdi ki, "Facebook" və digər sosial şəbəkələr hakimiyyətlər əleyhinə kampaniyalar aparılmasında maraqlıdırlar. "Həqiqətən də sosial şəbəkələrlə bağlı müxtəlif ölkələrdə problemlər yaşandığı aşkar şəkildə ortalıqdadır. İstər terrorçu qrupların fəaliyyəti, istər müxtəlif ölkələrdə baş verən "rəngli inqilablar", istərsə də başqa çaxnaşmalar olsun, onlarla bağlı sosial şəbəkələrdən ciddi şəkildə istifadə olunduğunun şahidi oluruq. Eyni zamanda, təkcə bu deyil, Almaniyada və başqa ölkələrdə qanunsuz informasiyaların yayılması, insanların məlumatlarının onların icazəsi olmadan dağıdılması kimi hallarla bağlı dəfələrlə "Facebook" xəbərdarlıqlar edilib. Amma hələ ki, ciddi bir nəticə yoxdur. Biz "Facebook" və digər sosial şəbəkələrdə nəyin şahidi oluruq? O sosial şəbəkələr ki, heç bir siyasi proseslərə qoşulmadıqlarını, ayrı-ayrı dövlətlərə, şəxslərə, qruplara qarşı aparılan kampaniyalarda iştirak etmədiklərini, insan haqlarını qoruduqlarını elan edirlər. Əslində isə onların bütün fəaliyyətləri bu məsələlərə qarşıdır. Azərbaycanla, eləcə də digər ölkələrlə bağlı haqlı informasiyalar çox yayılan, təbliğ olunan kimi "bu bir siyasi kampaniyadır" deyib yasaqlayırlar. Ancaq əks fikirlər olanda, hansısa bir ölkəyə yönəlik mənfi təmayüllər paylaşımlar edəndə, müxtəlif qruplarım maraqlarına uyğun hadisələr olanda ona açıq-aşkar göz yumurlar, bu proseslərin davam etməsinə şərait yaradırlar. Bütün bunlar, əslində, sosial şəbəkələri yaradan qrupların və mərkəzlərin bununla bağlı özlərinin düşünülmüş bir planının olması təəssüratını yaradır. Hiss olunur ki, sosial şəbəkələr açıq şəkildə idarə olunmasa da, hansısa güc mərkəzlərinin maraqlarına xidmət edən bir mexanizmdir. Müxtəlif ölkələr sosial şəbəkələrin tutduğu bu mövqeyə qarşı etirazlarını bildirirlər. Tutalım, İndoneziyada baş verən terrorla bağlı etirazlar və s. onu göstərir ki, artıq dünyada ayrı-ayrı dövlətlər və mərkəzlər tərəfindən sosial şəbəkələrdəki neqativ halların, xüsusən də terrorun və radikalizmin yayılmasına qarşı etirazlar olur. Azərbaycan hökumətinə qarşı da sosial şəbəkələrdə müxtəlif çirkin kampaniyalar aparılır, "Facebook" və digər sosial şəbəkələr də mənfi təmayüllərin fikirlərinin daha geniş şəkildə yayılmasına şərait yaradırlar. Bilirik ki, sosial şəbəkələrdə müxalif düşərgənin hökumət əleyhinə etdiyi paylaşımlara, çıxışlara, fikirlərə daha çox üstünlük verilir və onların məhdudlaşdırılması həyata keçirilmir. Bəzi qüvvələrin əlində sosial şəbəkələr bir neqativ alətə çevrilib. Təkcə "Facebook" deyil, eləcə də "YouTube" üzərindən söyüş müxalifətinin Azərbaycan hökumətinə qarşı sərt şəkildə istifadə etməsi faktına da bu təsisatı idarə edənlər məhdudiyyət qoymur, onlara daha böyük şərait yaradır. Bunlar artıq faktdır və bu hallarla bağlı ölçü götürülməlidir. Müşahidə etdiyim nədir? Azərbaycan müstəqillik əldə etdikdən və demokratik inkişaf yolu tutduqdan sonra bu vaxta qədər Azərbaycana qarşı müxtəlif vasitələrdən istifadə edilib".

M.Ələsgərlinin sözlərinə görə, bu vasitələrdən biri də QHT müstəvisində olub. O vurğuladı ki, çox uzun illər guya ki, QHT-lərə qrantlar ayrılıb deyə bu adlar altında Azərbaycanda qeyri-demokratik, qeyri-sivil siyasi qrupların maliyyələşdirilməsi həyata keçirilib. O bildirdi ki, bu məsələ aşkarlandı və bütün mexanizmləri ortaya çıxdı. "Məlum oldu ki, müxtəlif güc mərkəzləri milyonlarla vəsait xərcləyərək bu QHT-lər vasitəsilə Azərbaycanda ictimai-siyasi vəziyyətin pozulmasına nail olmaq istəyirlər və buna qarşı həm 2014-cü ildə qanunlar sərtləşdirildi, həm də müxtəlif tədbirlər həyata keçirildi. İndi isə həmin QHT adı altında fəaliyyət göstərən qüvvələrin, qrupların hamısı sosial şəbəkələrə keçib və buradan öz çirkin kampaniyalarını davam etdirirlər. Sosial şəbəkələri idarə edən qüvvələrin yaratdığı şərait nəticəsində sosial şəbəkələr üzərindən Azərbaycan hökumətinə qarşı çirkin kampaniya aparan bu qüvvələr xarici mərkəzlər tərəfindən ciddi şəkildə maliyyələşdirilir. Eyni zamanda da onlar çox güclü texniki avadanlıqlarla təmin olunurlar. İşsiz-gücsüz adamlar var ki, bütün gününü sosial şəbəkələrdə keçirir və buradan hökumətə qarşı hədyanlar yağdırırlar. Açıq-aşkar hiss olunur ki, bu qüvvələr təşkilatlandırılmış qüvvələrdir.

Öz fəaliyyətlərini sosial şəbəkələr üzərində quran və hakimiyyət əleyhinə siyasi kampaniyalar aparan adamlara sosial şəbəkələr tərəfindən daha geniş şərait yaradılması, onların aşkar şəkildə dəstəklənməsi onu göstərir ki, onlar sosial şəbəkəni idarə edən qüvvələrin maraqlarına xidmət edirlər. Sosial şəbəkələr üzdə siyasi proseslərə qoşulmadıqlarını elan etsələr də, amma əksini görürük, onlar hakimiyyətlər əleyhinə müxalifətin apardığı təbliğata geniş şərait yaradırlar. Sosial şəbəkələri idarə edən mərkəzlər bununla da Azərbaycanda və başqa ölkələrdə ictimai-siyasi sabitliyin pozulmasına cəhd edirlər. Bu kimi halların qarşısının alınması üçün bir mexanizm işlənib hazırlanmalıdır" - deyə M.Ələsgərli bildirdi.

***İradə SARIYEVA***

# Mərhum pilotun qohumları Əli Kərimlini öz matəm mərasimlərində niyə görmək istəmədilər...

**Təlim uçuşları zamanı qəzaya uğrayan hərbi təyyarənin pilotu Rəşad Atakişiyevin nəşi torpağa tapşırıldı. Məlum olduğu kimi, pilotun cəsədi qəzadan xeyli sonra, uzun axtarışların nəticəsində dənizin dibindən tapıldı. Dövlət öz şəhidini təmtəraqlı, adına layiq şəkildə dəfn etmək üçün üzərinə düşən bütün işləri gördü. Hətta şəhidin dəfni üçün İkinci Fəxri Xiyabanda yer ayırdı.**



Mərhum pilotun yaxınlarının mediaya verdiyi məlumatlardan aydın olur ki, dövlət bütün dəfn xərclərini də öz üzərinə götürüb. Bunları təsadüfən xatırlatmırıq. Bu hadisədən də siyasi dividend götürmək istəyən siyasi qruplar, partiya sədrləri olduğu səbəbilə məsələnin mahiyyətinə detallı şəkildə varmaq istəyirik. Azərbaycan dövləti bütün məsələlərdə milli-mənəvi dəyərlərə söykənən siyasət həyata keçirir. Yəni heç vaxt dövlət səviyyəsində kiminsə siyasi mənsubiyyətinə görə hansısa dəfn mərasimində iştirakının qarşısı alınmayıb.

Dəfndən öncəki gün mərhum pilotun qaynatası, tanınmış politoloq Qabil Hüseynlinin bir müraciəti yayıldı. Qabil Hüseynli müxtəlif siyasi partiya üzvlərindən və siyasi qruplardan keçiriləcək vida mərasiminə qatılmamağı xahiş edirdi. O, R.Atakişiyevlə vida mərasimindən müxtəlif siyasi məqsədlər üçün istifadə etmək arzusunda olan şəxslərə aşağıdakı məzmunda müraciət ünvanladı: "Ailəmiz çox çətin, ağır və kövrək bir dönəmdən keçir. Ailəmizin, hətta xalqımızın sevimlisi, rəşadətli pilotumuz Rəşad Atakişiyevi itirmişik. Mərhumun dəfni ilə bağlı həyata keçirilən vida mərasiminə dövlət öz dəstəyini göstərir. Müəyyən siyasi partiyaların və qrupların tədbirə qatılmaq və mərasim vasitəsilə siyasi dividend əldə etmək istəkləri barədə məlumatlar əldə etmişik. Həmin şəxslərdən artıq dərəcədə xahiş edirik ki, sabah keçiriləcək vida mərasiminə qatılmasınlar. Rica edirəm ki, bu ağrılı günümüzdə bizi başa düşsünlər".

Qabil Hüseynli sıradan bir adam olsaydı, bu cür müraciəti kiminsə diqtəsilə etdiyinə dair səslənən iradları qəbul edə bilərdik. Dövlət müşaviri kimi mühüm postda çalışmış, uzun illər politoloq kimi ölkənin ictimai-siyasi həyatında tanınan və ən nəhayət, professor elmi dərəcəsində olan bir adama bu cür bəyanatı verməyi diqtə etdirmək inandırıcı görünmür. Təəssüflər olsun ki, radikal müxalif elektoratın xaç atası kimi özünü aparan Əli Kərimli bu məsələdən də siyasi dividend əldə etmək istəyib. O, sosial şəbəkədəki hesabında yaranmış vəziyyəti hakimiyyətin üzərinə yıxmağa cəhd edib. Hətta bir az da irəli gedərək, hakimiyyəti faşist, aparteid siyasəti yürütməkdə ittiham edib. Əli Kərimli qatılmaq istədiyi bəzi tədbirlərdə ona maneçiliyin necə törədildiyinə dair müxtəlif misallar da çəkib. Ancaq məsələnin əsl mahiyyətinə toxunmayıb. Niyə deməyib ki, onu məclislərdə şəhid ailələrinin özləri görmək istəmirlər. Axı bunun dövlətlə heç bir əlaqəsi yoxdur. Əli Kərimlinin Xocalı faciəsinin anımı, 20 Yanvar şəhidlərinin yad olunması ilə bağlı göstərdiyi siyasi şoular hamının yadındadır. O heç vaxt sakit şəkildə, tədbirin mahiyyətinə uyğun tərzdə davranmır. Bir topa özünə yaxın olan bloger və jurnalistin açdığı canlı yayımın müşayiətilə hərəkət etməyə üstünlük verir. Tədbirin mahiyyəti ilə uzlaşmayan siyasi şüarlar səsləndirməyə göstəriş verir. Məsələn, 2016-cı ilin aprel hadisələri dövründə bütün xalq tarixi qələbə əhval-ruhiyyəsində olduğu halda, Əli Kərimli məsələnin mahiyyətini təhrif etdi, ordumuza qarşı kampaniya təşkil etməyə çalışdı. Həmin hadisələrlə bağlı dəfn mərasiminə başının dəstəsilə gəldi. Bütün yol boyu müxtəlif KİV-ə müsahibələr verdi. Onun kimləri dəfndə görmək istəməyən Qabil Hüseynli müxalif cameə üçün yad adam sayılmır. Uzun müddət Müsavat Partiyasının funksioneri olub. Yəni Əli Kərimlini və digərlərini bizdən yaxşı tanıyır, onların nəyə qadir olduğunu gözəl bilir. Biz başqa müxalif partiya liderlərinin də bu məsələ ilə bağlı davranışlarını gördük. Onların əksəriyyəti mərhum pilotun ailəsinin çağırışına hörmətlə yanaşıb, məclisə qatılmadılar, yalnız mərhumun ailəsinə sosial şəbəkə və KİV üzərindən başsağlığı verməklə kifayətləndilər. Ancaq bütün məsələlərdə olduğu kimi, Əli Kərimli bu hadisədə də siyasi dividend qazanmaq naminə məsələni siyasiləşdirdi. Bu istiqamətdə yeni müzakirələrin aparılmasına şərait yaratmış oldu. Əli Kərimlinin hərəkətləri şəhidlərimizə, onların yaxınlarına hörmətsizlikdən başqa bir şey deyil. Hansı şəxs əzizinin yas mərasimini siyasi avantüra vasitəsinə çevirmək istəyənləri bu mərasimdə görmək istəyər?

Əslində, Əli Kərimlinin özü üçün də bu cür qələbəlik yerlərdə görünməmək xeyirdir. Çünki ona qarşı xalqın içindəki münasibət birmənalı deyil. Hətta müxalif cameənin özündə belə ona böyük aqressiya ilə yanaşanlar var. Hər an üzərinə hücum olunub, döyülə bilər. Bunu heç kim istisna edə bilməz. Ən azı onunla bağlı aparılan müzakirələrdə biz AXCP-dən kənar müxalif qüvvələrin Əli Kərimli personasına bəslədiyi kin-küdurəti görürük. Bu qadağanı tətbiq etməklə Qabil Hüseynli ən böyük yaxşılığı elə Əli Kərimliyə edib. Onu növbəti xalq qınağı və danlağından xilas edib.

***Məhəmmədəli QƏRİBLİ***

# Amulsar mədəni tam dayandırılsa, Paşinyanın iqtisadi durumu necə olacaq...

## *Arzuxan Əlizadə: "Paşinyan Amulsarın istismarını dayandırmaq məcburiyyətində qalsa, xarici investorların inamı sarsılacaq"*

**Ermənistanda artıq bir neçə gündür Amulsar qızıl yataqları ətrafındakı gərgin vəziyyət səngiməl bilmir. Hökumət xarici şirkətlərə qızıl yatağının işlənməsi ilə bağlı razılıq versə də, ətrafda yaşayan insanlar bu qərara etiraz edirlər. Bununla bağlı ölkədə ard-arda aksiyalar keçirilir.**



Ekologiya müdafiəçilərinin fikrincə, mədən qazıntıları zamanı işlədilən sianid Sevan gölü və Cermuk kurort şəhəri üçün təhlükə törədir. İrəvanda bununla bağlı keçirilən aksiyalar zamanı nümayişçiləri Milli Assambleyanın parkına buraxmaq istəməyən polislə aksiyaçılar arasında toqquşma baş verib.

Əslində, məsələnin mahiyyəti Ermənistan üçün daha da acınacaqlıdır. Baş nazir Nikol Paşinyan hakimiyyətə gəldiyi dövrdə ölkəyə xarici investisiyaların cəlb ediləcəyinə, iqtisadiyyatın inkişaf etdiriləcəyinə söz vermişdi. Amulsar qızıl yataqlarının işlənməsi ilə bağlı qərar da bu istiqamətdə ən uğurlu addımlardan biri kimi piar kampaniyasında istifadə olunurdu. Lakin vəziyyət Paşinyanın əleyhinə çevrilməkdə davam edir. Bunu onun tərəfdarları da etiraf edirlər.

Hakim "Mənim addımım" blokunun deputatı Babken Tunyan olaylara münasibətini açıqlayıb. Onun sözlərinə görə, əgər qızıl yataqlarının işlənməsinin fəsadları ilə bağlı iddiaların heç bir əsası yoxdursa, buna maneə yaradılmamalıdır: ""Lidian" şirkətinin ekspertlərinin yekun rəyində də deyilir ki, mövcud risqlər idarə oluna biləcək səviyyədədir. Amulsar qızıl yataqları ilə bağlı istifadə icazəsinin geri alınması Ermənistanda bütün mədən sənayesi ilə bağlı icazələrin ləğvi anlamına gəlir. Biz buna hazırıqmı? Onsuz da vəziyyət daha pisdir. Amulsar qızıl yataqları ilə bağlı vəziyyət potensial sərmayəçilər üçün çox pis siqnaldır. Bu, investorlar üçün sərmayə qoyulacağı halda nələrin yaşana biləcəyini göstərən bir amildir".

Görünən odur ki, Amulsarın istismarı asan olmayacaq. Hökumət qızıl mədəninin istismarına razılıq versə də, ölkədə əhalinin, ekoloqların bu qərara yönəlik artan etirazları Paşinyanın Amulsarla bağlı verdiyi qərarı dayandırmasına gətirib çıxara bilər.

Maraqlıdır, ölkədə Amulsarla bağlı artan etirazlar fonunda mədənin istismarı dayandırılsa, bu, Ermənistan iqtisadiyyatının əsaslarına necə zərbə vuracaq?

## *"Bu da ölkə iqtisadiyyatına ciddi zərbə vuracaq"*

Məsələyə münasibət bildirən AMİP-in baş katibi Arzuxan Əlizadənin sözlərinə görə, Amulsarla bağlı qərar geri oxunsa, bu, Ermənistan iqtisadiyyatına ciddi zərbə olacaq: "Söhbət təkcə 31 milyon ton qiymətli filiz və 40 ton təmiz qızıl ehtiyatının istismarının dayandırılmasından getmir. Düzdür, sözügedən ehtiyatlar Ermənistan iqtisadiyyatı üçün mühüm əhəmiyyət kəsb edir. Bunun sayəsində Ermənistan müəyyən gəlirlər əldə edəcək. Nəzərə almaq lazımdır ki, Amulsar Ermənistanda ikinci böyük yataq hesab olunur. Ancaq burada əsas məsələ xarici investorların etimadı ilə bağlıdır. Məsələ ondadır ki, Paşinyan Amulsarın istismarını dayandırmaq məcburiyyətində qalsa, xarici investorların inamı sarsılacaq. Zatən, Ermənistanda bu sahədə ciddi problemlər var. Uzun müddət Paşinyanın Ermənistana investisiya yatırılması ilə bağlı çağırışları cavabsız qalıb. Sərmayəçilər ölkədə vəziyyətin sabitləşməsini gözləyirdilər. İndi isə Amulsar qızıl yataqları ətrafında gedən proseslər xarici sərmayənin cəlbi baxımından yaxşı perspektiv vəd etmir. Fikrimcə, Amulsarın istismarı dayandırılsa, Emənistana sərmayə yatırmaqda onsuz da könülsüz olan investorlar ölkəni tərk edəcəklər. Bu da ölkə iqtisadiyyatına ciddi zərbə vuracaq".

***Vidadi ORDAHALLI***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# ABŞ-ın Qarabağ siyasəti Ermənistanda daha çox narahatlıq yaratmağa başlayır

**İşğalçı Ermənistanın bütün cəhdlərinə baxmayaraq, ABŞ-ın bu ölkəyə münasibəti heç də İrəvanın istədiyi səviyyədə deyil. Ermənistanla iqtisadi münasibətlərini getdikcə məhdudlaşdıran, bu ölkəyə, eləcə də zəbt edilmiş Azərbaycan ərazilərində yaradılan separatçı rejimə maliyyə yardımlarını azaldan ABŞ-ın Dağlıq Qarabağ münaqişəsi ilə ilgili real mövqeyi də Ermənistanda xoş qarşılanmır.**

Məsələ burasındadır ki, ABŞ əvvəlki qaydada Qarabağ məsələsində Azərbaycanın ərazi bütövlüyünü tanıyır və bunu baş nazir Nikol Paşinyanın Xankəndidə verdiyi məlum bəyanata Vaşinqtonun münasibəti də aydın surətdə nümayiş etdirir. Xatırladaq ki, bununla bağlı ABŞ səfirliyinin verdiyi açıqlamada əsas diqqət həmsədrlərin bu il martın 9-da yaydığı bəyanata yönəldilib: "ABŞ ATƏT-in Minsk Qrupunun həmsədri olaraq tərəflərə Dağlıq Qarabağ münaqişəsinin ədalətli və sülh yolu ilə həllində kömək etmək üçün qətiyyətli olaraq qalır. Minsk Qrupunun həmsədrləri tərəfləri dəfələrlə gərginliyi azaltmaq üçün tədbirlər görməyə və konstruktiv danışıqlara şərait yaradan mühiti dəstəkləməyə çağırıb. Sizi Minsk Qrupunun həmsədrlərinin bu məsələyə dair açıqlamalarına, xüsusən də 9 mart 2019-cu il tarixli mətbuata açıqlamasına yönəldirik". ATƏT-in Minsk Qrupunun həmsədrlərinin həmin vaxt yaydıqları bəyanatda isə deyilir ki, münaqişənin ədalətli və davamlı həlli ərazi bütövlüyü, bərabər hüquqluluq üzərində qurulmalıdır: "Bu, həmçinin, 2009-2012-ci illərdə həmsədr ölkələrin prezidentləri tərəfindən təklif edilən əlavə elementləri də ehtiva etməlidir: Dağlıq Qarabağ ətrafındakı ərazilərin Azərbaycanın nəzarətinə qaytarılması, Dağlıq Qarabağa təhlükəsizliyi və özünüidarəetməni təmin edən müvəqqəti statusun verilməsi, Dağlıq Qarabağın yekun hüquqi statusunun müəyyən edilməsi, qaçqınların və məcburi köçkünlərin öz yaşayış yerlərinə qayıtma hüququnun və sülhməramlı əməliyyatların daxil olduğu beynəlxalq təhlükəsizliyin təmin edilməsi". Həmsədrlər hesab edir ki, bu prinsiplər və elementlər münaqişənin ədalətli və davamlı həlli üçün bünövrə kimi qəbul edilməlidir.

Bütün bunlar bir daha təsdiq edir ki, ABŞ-ın məsələyə yanaşması indiki halda Azərbaycanın maraqları ilə uzlaşır. Elə ABŞ-ın yaydığı açıqlama da Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycana verilmiş vacib dəstək sayılır. Bütün bunlar o deməkdir ki, ABŞ ilk növbədə ətraf rayonların Azərbaycana qaytarılması, Qarabağın yekun statusuna aydınlıq gətirilməsi variantına üstünlük verir. Bu, vaxtilə "Madrid prinsipləri" çərçivəsində sabiq prezident Serj Sarkisyanın da razılaşdığı bir həll variantıdır. Beləliklə, ABŞ prezidentinin müşaviri Con Boltonun Cənubi Qafqaza səfəri zamanı "İşğal altındakı ərazilər boşaldılmalıdır" ismarışından sonra da Vaşinqton yenə bu mövqeyində qalır. Bundan qabaq da bir neçə dəfə Vaşinqton tərəfindən Bakının icazəsi olmadan danışıqlar formatının dəyişdirilməsinin mümkünsüzlüyü bildirilmişdi. Qeyd edilənlər həm də onun təsdiqidir ki, Paşinyanın gələn ay ABŞ-a planlaşdırılan səfərindən də Ermənistan özü üçün hansısa nəticə əldə etməyəcək. Bütün bunlar İrəvanda getdikcə daha böyük təşviş doğurur. ABŞ-da fəaliyyət göstərən Amerika Erməniləri Milli Komitəsi (ANCA) də Vaşinqtonun İrəvana münasibətinin heç də qənaətbəxş səviyyədə olmadığını diqqətə çatdırır. Qurum bildirir ki, məhz bu səbəbdən Ermənistana 140 milyon dollarlıq qrant verilməsi istəyi ilə ABŞ-a ünvanladığı son müraciətəinə də müsbət cavab ala bilmir. Digər tərəfdən, elə bu günlərdə ABŞ-ın Ticarət Nazirliyinin iki erməni şirkətinə sanksiya tətbiq etməsi tərəflər arasında münasibətlərin gərginləşən xətt üzrə inkişaf etməkdə olduğunu göstərir.

Qeyd edək ki, Ermənistan ABŞ-ın Ticarət Nazirliyinin iki erməni şirkətinə sanksiya tətbiq etməsinə görə rəsmi Vaşinqtona etiraz edib. Etiraz bəyanatını sanksiyaya məruz qalan İrəvan Elmi-Tədqiqat Rabitə İnstitutu QSC (İrNİSS) və "Markel" QSC-nin rəhbərliyi yayıb. Şirkətlərin rəhbərlikləri ABŞ-ın ittihamlarını qəbul etmədiklərini, bu barədə Ermənistanın Amerikadakı səfirliyinin məlumatlandırıldığını bildirib. Bəyanatda ABŞ Dövlət Departamenti qərəzdə ittiham olunub. Xatırladaq ki, avqustun 13-də ABŞ Ticarət Nazirliyi sözügedən iki erməni şirkətinə sanksiya tətbiq edildiyini açıqlayıb. Məlumatda bildirilib ki, İrNISS və "Markel" QSC ABŞ Sənaye və Təhlükəsizlik Bürosunun Ticarət Nəzarəti Siyahısından lisenziyasız mallar alaraq təkrar ixrac edib. Ayrıca, İrnİSS-in icraçı direktoru və "Markel" QSC-nin prezidenti ABŞ-ın sanksiyaları altında olan İran şirkəti ilə işbirliyində ittiham olunub. Şirkətlərin "qara siyahı"ya daxil edilməsinin səbəbləri ABŞ Federal Reyestrinin saytında dərc edilmiş sənəddə yer alıb.

ABŞ Araşdırmaları Mərkəzinin rəhbəri Suren Sarkisyan isə etiraf edir ki, baş verənlər İrəvan və Vaşinqton arasında münasibətlərin pisləşməkdə olduğunu nümayiş etdirir. Bu durumda sentyabr ayında Nikol Paşinyanın ABŞ-a səfəri və bu səfərin əhəmiyyəti haqqında aylar öncə bəyanat verilməsi, bu səfərdən hansı gözləntilərin olmasına dair fikirlərini açıqlayan Sarkisyanın sözlərinə görə, İrəvan Vaşinqtondan nələrsə əldə etməyə artıq böyük ümidlər bəsləməməlidir: "Belə vəziyyətdə ABŞ prezidenti ilə Paşinyanın görüşünün baş tutacağı barədə Xarici İşlər Nazirliyi dəqiq məlumat verməsə də, ABŞ-la siyasi dialoq sahəsində yüksək səviyyədə əməkdaşlıq çatışmazlığı özünü göstərir. Bir il bundan əvvəl Ermənistan hakimiyyət orqanlarının söz açmasına baxmayaraq, Paşinyan-Tramp görüşü bu dəfə də baş tutmayacaq. Bu səfər icma səviyyəli səfər adlandırıla bilər. Kaliforniya ştatının rəhbərliyi ilə görüşün olacağı istisna edilmir. Eyni zamanda Kaliforniyanı təmsil edən senat və konqresmenlərlə də görüş baş tuta bilər. Vaşinqtona səfər, o cümlədən Paşinyan-Tramp görüşü nəzərdə tutulmayıb, daha doğrusu, ABŞ belə görüşü rədd edir. Bu günə qədər nə keçmiş hakimiyyət, nə də indiki hakimiyyət nümayəndələrinin Tramp administrasiyasını təmsil edənlərlə yüksək səviyyədə görüşü olmayıb. Belə bir vəziyyətin ABŞ-la ortaq gündəm olmayanadək davam edəcəyini düşünürəm.

Minalanmış sahələrin minalardan təmizlənməsi məqsədilə Qarabağdakı rejimə ayrılan maliyyə yardımının dayandırılması məsələsinin müzakirə mövzusu olmasına gəldikdə, Vaşinqton ekspertləri hesab edir ki, Qarabağa yardımın dayandırılması Ermənistanın Suriyada iştirakına birbaşa cavabdır. Bu fikirlə razıyam və cəmi bir-iki aydan sonra 2020-ci il üzrə ABŞ-ın büdcəsinin qəbul ediləcəyi bir vaxtda Qarabağa yardımın ayrılmasından artıq söhbət gedə bilməz. Bu yardımın dayandırılmasının qarşısını Ermənistan yox, yalnız erməni lobbisi ala bilərdi. Amma bu dəfə erpməni lobbisi də aciz vəziyyətdə qaldı. Düzdür, senatorlar və konqresmenlər məktubla USAID-ə müraciət edərək, istənilən halda Qarabağa yardımın dayandırılmamasını xahiş ediblər. Lakin ortada nəticə yoxdur". "ABŞ büdcəsi ilə bu yardım davam etməsə də USAID təşkilatının maliyyəsi hesabına aparıla bilərmi" sualına Sarkisyan belə cavab verib: "Ümumiyyətlə, büdcə layihəsində Qarabağa ayrılan yardım cümləsi çıxarılıb və məhz bu layihə müzakirəyə qoyulub".

O qeyd edib ki, senator və konqresmenlərin, həmçinin bəzi bir neçə nüfuzlu şəxslərin administrasiyaya təzyiqinin nə dərəcədə effektiv olacağını demək çətindir: "İstənilən halda, USAID müstəqil şəkildə yardım edilməsi haqqında qərar qəbul edə bilər. Təşkilat yekunda həmin cümləni büdcə layihəsinə artıra və Konqresin təsdiqinə göndərə bilər. Ermənistan hakimiyyəti tərəfindən vurğulanır ki, Suriyaya hərbi qoşun göndərilməsi ikitərəfli münasibətlərə təsir edə bilməz və ABŞ tərəfindən müsbət anlayış gözləyir. Lakin ABŞ tərəfi ifadə edir ki, sizin qərarı diqqətə alaraq, bundan irəli gələn bütün nəticələrə görə özümüz qərar verməklə, aparılan siyasətə yenidən baxacağıq. Həmçinin, iki erməni şirkəti İran və Rusiya ilə əməkdaşlıq etdiyinə görə sanksiyaya məruz qalıb. Bu şirkətlər sanksiyalara məruz qalmış rus və İran şirkətləri ilə əməkdaşlıq ediblər. Bu, anti-Rusiya və anti-İran sanksiyalarının Ermənistana təsir etməyəcəyi iddialarına cavabdır. Həmişə qeyd etdiyim kimi, ikinci dərəcəli təyinatlı sanksiyalar Ermənistana da zərbə vurur. Artıq Ermənistanda sanksiyalara məruz qalan təşkilatların olduğunu unutmamaq lazımdır". Sarkisyanın fikrincə, ABŞ-ın tətbiq etdiyi sanksiyalar birbaşa və ya bilavasitə mütləq Ermənistan iqtisadiyyatına zərbə vuracaq: "Ermənistanın digər şirkətlərinin də İran və Rusiya təşkilatları ilə əməkdaşlıq etdiklərinə görə sanksiyalara məruz qalacağı istisna olunmur. Təbii ki, bu məsələdə diqqətli olmaq lazımdır, çünki ABŞ hər hansı ölkəyə və ya hər hansı təşkilata istisna şamil etmir. ABŞ-İran və ya ABŞ-Rusiya münasibətlərində hər hansı müsbət niyyət nəzərə çarpmır. Yaxın 10-15 il ərzində Rusiya-ABŞ münasibətlərinin normal axarına qayıdacağını düşünmürəm. Çünki qəbul edilən hüquqi aktlar və bunların əsasında tətbiq edilən sanksiyalar Konqres tərəfindən qəbul edilib və bunları dəyişmək çox çətin olacaq. Belə bir nümunə olaraq SSRİ vaxtında Cekson-Venik sanksiyalar qanunvericiliyinin qəbul edildiyini və 20 il qüvvədə qaldığını xatırlada bilərəm. Ona görə də Rusiya-ABŞ münasibətlərinin yaxın gələcəkdə normallaşmasını gözləməyə dəyməz. Eyni şey İran-ABŞ münasibətlərinə də aiddir. Ola bilər, onlar danışıqlar masası ətrafında otursunlar, hansısa məsələlər ətrafında razılığa gəlsinlər, lakin onlar əks qüvvələr olmaqda davam edəcəklər. Çünki dünyanın müxtəlif bucaqlarında bu ölkələrin maraqları nəinki üst-üstə düşmür, hətta əksinə, bir-birinə qarşı ziddiyət təşkil edir. Belə vəziyyətdə Ermənistanın ortada qalması və ABŞ-ın hədəfinə çevrilməsi aydın görünür. Məhz bu vəziyyətdə ABŞ-ın Azərbaycanla münasibətdə fərqli mövqedə olması ciddi narahatlıq doğurur". Sarkisyan hesab edir ki, bu hal ABŞ-ın Qarabağ siyasətində də özünü büruzə verərək, Azərbaycanın lehinə işləyəcək.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Rusiya Baş Prokurorluğu Ermənistan Məhkəmə Qərarlarının İcbari İcrası Xidmətinin sabiq rəhbəri, Respublikaçılar Partiyasından keçmiş millət vəkili Miqran Poqosyanı ölkəsinin hüquq-mühafizə orqanlarına təhvil verməkdən imtina edib.**



# Rusiya Paşinyana qarşı daha bir siyasi nümayiş göstərdi - Poqosyan təhvil verilmədi...

## *Məhəmməd Əsədullazadə: "Poqosyanın təhvil verilməməsi iki ölkə münasibətlərinə təsirsiz ötüşməyəcək"*

Rusiya Federasiyası Baş Prokurorluğundan verilən məlumata görə, M. Poqosyanı Ermənistana təhvil verilməsi istəyini təmin etmək mümkün deyil. Bunu onunla əlaqələndirirlər ki, 1993-cü ildə imzalanan beynəlxalq konvensiya buna imkan vermir.

Qeyd edək ki, 2008-2017-ci illərdə qeyd olunan vəzifədə işləmiş, sonradan 2018-ci ilədək millət vəkili olmuş M.Poqosyan külli miqdarda mənimsəmələr və vəzifə səlahiyyətlərindən sui-istifadələrdə ittiham olunaraq cari ilin aprel ayından axtarışa verilib.

Erməni mediasında Rusiyanın bu addımı birmənalı qarşılanmayıb. Ermənistan Baş Prokurorluğunun mətbuat katibi Arevik Xaçatryan qarşı tərəfin 1993-cü ildə qəbul edilmiş Mülki, Ailə, Cinayət İşlərinə Dair Hüquqi Yardım və Hüquqi Münasibətlər Konvensiyasına istinad etdiyini diqqətə çatdırıb.

Ermənistanın "1in.am" saytı yazır ki, Rusiyanın Poqosyanı ekstradisiya etməkdən imtina etməsi iki ölkə arasında çox ciddi siyasi böhrandan xəbər verir: "Ermənistanın bir nömrəli strateji müttəfiqi hesab edilən dövlətin belə bir münasibəti onu deməyə əsas verir ki, xarici siyasət, Ermənistan diplomatiyası tam iflas olub. Özü də bütün istiqamətlərdə. İnqilabın xarici siyasətdə nəticələri kapitallaşmayıb və bunu hakimiyyət nümayəndələri də etiraf edirlər. Hazırkı məsələ ilə bağlı söhbət tək xırda uğursuzluqlardan və yaxud ayrı-ayrı epizodlardan deyil, konseptual problemlərdən gedir".

Müəllif yazır ki, hakimiyyət iddia edirdi ki, inqilab xarici siyasətdə hər hansı bir dəyişikliyi nəzərdə tutmur: "Nikol Paşinyanın bu tezisi məzmunca səhv idi, çünki müasir dünyada xarici və daxili siyasətdə mexaniki sərhəd mövcud deyil. Hətta vahid məntiqdə nəzərdən keçirilir. Ötən ilyarım göstərdi ki, xarici siyasətin fəlsəfəsində belə hər hansı bir dəyişiklik baş vermədi. Nəticə də budur ki, Ermənistanın Rusiyadan birtərəfli qaydada asılılığı nəinki azaldı, həm də Ermənistan-Rusiya münasibətlərində dərin institusional böhran yaşandı. Miqran Poqosyanla bağlı epizod yalnız bunun lokal təzahürüdür".

*"Moskvanın israrlarına rəğmən, Köçəryanın həbsdə qalması Moskvanın da analoji addım atmasına gətirir"*

Bütün bu deyilənlərin fonunda, Poqosyanın təhvil verilməməsi Ermənistan-Rusiya münasibətləri kontekstində nə deməkdir?

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd Əsədullazadənin sözlərinə görə, Poqosyanın təhvil verilməməsi iki ölkə münasibətlərinə təsirsiz ötüşməyəcək: "Rusiya-Ermənistan əlaqələrinin inkişafı, demək olar ki, mümkün görünmür. Nikol Paşinyan hakimiyyəti Rusiyada inamsızlıq yaradıb. Ona görə də iki dövlət arasında hüquqi proseslərdə problemlər olacaq. Qeyd edim ki, Moskvanın israrlarına rəğmən, Köçəryanın həbsdə qalması Moskvanın da analoji addım atmasına gətirir. Hesab edirəm ki, oktyabrda Putinin Ermənistana gözlənilən səfərində də münasibətlər düzəlməyəcək. Ermənistan hakimiyyətinin siyasi kursunda ciddi problemlər var. Onun daxili və xarici siyasəti fiaskoya gedir.

Rusiyanın Ermənistanın tələblərinə baxmayaraq, Poqosyanı təhvil verməməsində əsas problem Paşinyan iqtidarından qaynaqlanır. Ona görə də iki ölkə arasında münasibətlərin inkişafından söhbət belə gedə bilməz. İki ölkə arasında etimadsızlıq hökm sürür. Paşinyan hesab edir ki, Kreml onu devirmək istəyir. Kreml də hesab edir ki, Paşinyan Qərbə üz tutur, Moskvadan üz döndərir. Bu kontekstdə təbii ki, ikitərəfli hüquqi məsələlərdə anlaşmamaq etimadsızlıqdan irəli gəlir".

***Vidadi ORDAHALLI***

**Məlum olduğu kimi, Lerikdəki "Relaks" adlanan istirahət mərkəzində Vergilər Nazirliyinin əməkdaşları və mərkəzin rəhbərliyi arasında toqquşmadan sonra deputat İqbal Məmmədovun oğlu Mirhəmid Nərimanlı və digər 5 nəfər barəsində həbs-qətimkan tədbiri seçilib. Hadisə ətrafında müzakirələr hələ də davam edir.**




# "Relaks" olayları - hakimiyyətin və radikal müxaliflərin siyasətini müqayisə etməyə daha bir fürsət...

Qısa xatırlama üçün qeyd edək ki, ötən həftə nazirliyin əməkdaşları "Relaks" istirahət və turizm mərkəzinə vergidən yayınma əsaslarına görə vergi yoxlaması aparmaq üçün gediblər. Bu zaman Vergilər Nazirliyinin və hüquq-mühafizə orqanlarının əməkdaşları ilə istirahət mərkəzinin rəhbərliyi arasında qarşıdurma baş verib.

Sosial mediada yayılan və həmin insidentdən olduğu deyilən video-görüntülərdə İqbal Məmmədovun oğlu M.Nərimanlı və qardaşı oğlu olduğu iddia olunan Orxan Məmmədovun vergi əməkdaşları ilə dalaşdığı görünür. Video-görüntülərdə O.Məmmədov olduğu iddia olunan şəxs vergi əməkdaşlarını və polis əməkdaşı geyimində olan şəxsləri hadisə yerindən qovmağa çalışır və təhqiramiz ifadələrdən istifadə edir.

Onlar Cinayət Məcəlləsinin vəzifə səlahiyyətlərini ağır nəticələrə səbəb olmaqla aşma və hakimiyyət nümayəndələrinə həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə maddələri ilə məhkəmənin qərarına əsasən həbs olunublar. Vergilər, Daxili İşlər nazirlikləri və Baş Prokurorluğun yaydığı birgə məlumatda deyilir ki, avqustun 16-da nəzarət tədbirlərini həyata keçirmək üçün "Relaks" istirahət və turizm mərkəzinə gələn Vergilər Nazirliyinin əməkdaşları müqavimətlə üzləşib və əraziyə buraxılmayıblar.

Məlumatda deyilir ki, mərkəzə gələn Lerik Rayon Polis Şöbəsinin əməkdaşlarının, Lerik Rayon İcra Hakimiyyəti nümayəndələrinin məsələyə müdaxiləsi nəticə verməyib və özünü istirahət mərkəzinin vəzifəli şəxsləri kimi təqdim etmiş şəxslər vergi əməkdaşları və polis işçilərinə hücum təşkil edərək onlara müxtəlif xəsarətlər yetiriblər.

Həmçinin, qeyd olunur ki, Vergilər Nazirliyinin xidməti istifadəsində və nazirlik əməkdaşlarının şəxsi istifadələrində olan avtomaşınlara daş parçaları ilə zədələr yetiriblər. Rəsmi məlumatda deyilir ki, "Relaks" istirahət və turizm mərkəzinin dövlət büdcəsinə ödədiyi vergilər kəskin azaldığına görə mərkəzin real vergi potensialını ölçmək məqsədilə ərazidə vergi yoxlamaları keçirilib. Sahəsi 14 hektardan çox ərazidə yerləşən, qonaqların qalması üçün 142 nömrədən və müxtəlif təyinatlı 20 obyektdən ibarət olan mərkəz 2018-ci ildə 10 min 726 manat, 2019-cu ilin ötən dövrü ərzində isə 972 manat vergi ödəyib.

Bunun ardınca yayılan başqa məlumatda bildirilir ki, "Relaks"ın "Azərenerji"yə də 30 min manat məbləğində borcu olub. İndiyədək istirahət mərkəzinin məsul şəxsləri "Azərenerji"nin əməkdaşlarına sayğaca baxış keçirməyə icazə verməyiblər.

Bütün bir xronologiyanı verməkdə məqsədimiz budur ki, oxucuda hadisəyə hakimiyyətin və radikal müxalifətin necə reaksiya verməsi ilə bağlı aydın təsəvvür yaransın. Qeyd edək ki, bu hadisə ətrafındakı müzakirələr media və sosial şəbəkələrin gündəmindən düşmür. Hadisəyə iki fərqli münasibət sezilir. Hakimiyyətlə radikal müxalifətin baxışları arasındakı fərq tam şəkildə təzad təşkil edir. Gəlin bu hadisə ilə bağlı hakimiyyətin atdığı addımlara diqqət edək. Yayılan rəsmi məlumatlardan da görünür ki, kimə məxsus olmağından asılı olmayaraq, vergi işçilərinin əlində həmin obyektdə yoxlama aparmaq üçün tam əsas olub. Əgər bir istirahət mərkəzi 8 ay ərzində cəmi 972 manat vergi ödəyirsə, burada vergidən yayınma cinayətinin olması ilə bağlı şübhələr üçün əsas var. Bir daha xatırladırıq ki, dövlət qurumu üçün obyektin kimə məxsus olması heç bir əhəmiyyət daşımayıb və onlar gəlib yoxlamalarını aparmaq istəyiblər. Orada baş verən qanunsuzluqdan sonra polis insidenti törədənlərin hamısını həbs etdi. Burada da kimin kimin oğlu və ya qohumu olması məsələsinə baxılmadı. Hətta millət vəkili İqbal Məmmədovun oğlu da həbs edildi. Sonra məhkəmə onlar barəsində həbs-qətiimkan tədbirinin seçilməsi barədə qərar çıxardı. Yəqin ki, bu əməli törədənlərlə bağlı cinayət işinin sonunda məhkəmə tərəfindən ittiham hökmü də çıxarılacaq. Bu, tanınmış bir insanın obyektində baş verən harın hərəkətlə bağlı dövlətin ortaya qoyduğu mövqedir. İndi gəlin baxaq görək, radikal müxalifət bu hadisədən necə dividendlər əldə etmək istəyir? Həmişəki kimi, istənilən hadisəni siyasiləşdirib, ondan öz təbliğatları üçün istifadə etmək cəhdləri nəzərə çarpır. Onlar qeyd edirlər ki, guya bu, hakimiyyətdaxili klanların mübarizəsinin nəticəsində meydana çıxan hadisədir. Bəzi radikallar isə niyə bu hadisənin törədildiyinə dair hətta hökumətə sual ünvanlayırlar. Yəni dövlətin vətəndaşının xeyrinə olan addımına onlar tərəfindən ciddi dəstək hiss edilmir. Əslində isə hətta ən radikal müxalifət belə, dövlətin konkret situasiya ilə bağlı atdığı qanuni addımları dəstəkləməli idi. Çünki hakimiyyət bu məsələdə bütün varlığı ilə qanunun aliliyi prinsipindən çıxış edib.

***Məhəmmədəli QƏRİBLİ***

# "Ərəb Xədicə", "Vaşinqton Post"un "ayaqyalın" məntiqi və Kolin Pauelin məşhur fotosu...

## Demokratiya tək qaranlıqda ölür?



Aydın QULİYEV

**"Demokratiyanın zülmətdə ölməsi" yeni fikir olmasa da, bu günlərdə tanıdığımız "məşhur Xədicə" barədə "Vaşinqton Post" qəzetinin məqaləsini oxuyandan sonra qəzetin neçə on illərdən bəri deviz seçdiyi həmin fikri bir daha götür-qoy etməyə ehtiyac yarandı. Qaranlıq və şübhəli mühitdə demokratiya həqiqətən məhv olur və bunu inkar etmək doğru olmazdı. Ancaq tək bu deyil...**

Demokratiya o qədər zərif və incə bir sosial idarəetmə fenomenidir ki, təkcə qaranlıqda yox, başqa motivlərlə bulandırılan, qarışdırılan mühitdə də məhv ola bilirmiş... Üstəlik, demokratiyanın qaranlıq mühitləri öz parlaq ziyası ilə yox etmək, hər şeyin üstündəki pərdəni açmaq, nələrisə ört-basdır etmək cəhdlərinin ifşa etmək funksiyası da var imiş... Demokratiyanın həm də bir öldürücü və işıqlandırıcı silah olduğunu nəzərə alsaq, deməliyik ki, demokratiyanı təkcə "qaranlıqda ölən fenomen" kimi görən "Vaşinqton Post"un təsəvvürü az qala arxaikləşmək səviyyəsində köhnəlib. Demokratiya yalnız deyilən mahiyyətdə, yəni "qaranlıqda ölən fenomen" olsaydı, "Vaşinqton Post"un məntiqinə görə, dünyada heç bir yerdə, elə ABŞ-ın özündə də demokratiya qalmazdı ki... Harda korrupsiya, təqib, təzyiq yoxdu ki?! Ancaq bunların mövcud olduğu ölkələrdə də demokratiya var ola, inkişaf edə və mövcud neqativləri islah edə bilir. Demək, "Vaşinqton Post"un köhnəlmiş məntiqinin tam əksinə olaraq, demokratiya qaranlıq və alatoran mühitdə dimdiyindən tutulmuş balaca sərçə kimi tez canı çıxan zəif bir fenomen yox, bundan daha artıq olaraq həm qarşısında, həm də ayaqlarının dibində öz əhatəsindəki neqativləri öldürən, üstünə işıq saçan təsirli silahdır.

**Beynəlxalq təşkilatı Xədicəyə 19 min dollarlıq dəstək jestinə vadar edən nədir?**

ABŞ-ın ən nüfuzlu qəzetlərindən olan "Vaşinqton Post"un tanıdığımız "məşhur Xədicə" barədə məqalə dərc edərkən demokratiyanın həm də öldürən və işıqlandıran bir silah olması faktoruna nə dərəcədə önəm verib-vermədiyini bilmirik. Ancaq Xədicə barədə Azərbaycan cəmiyyətinin, deməli olar ki, tam bələd olduğu informasiyaları yeni məqalə kimi təqdim edən "Vaşinqton Post"un rəhbərliyinin həqiqətən mətbuat azadlığı, həqiqətən demokratiya, həqiqətən gizli dövlət inhisarlarından tam sərbəst qəzet olduğu ciddi şübhələr qarşısında qalır. Bir Xədicənin aid olduğu məsələni əsas götürərək dövlətçi və vətənpərvər jurnalistlər və media orqanları üçün bir sıra mütərəqqi dəstək üsullarının nəzərəçarpan böyük nəticələrini kənara qoymaq, medianın ən etibarlı himayədar kimi dövlətə sığınmasını Azərbaycanda mətbuat azadlığının olmaması kimi ümumi ittihamçılıqla yozmaq nə qədər ədalətli və ehtivalıdır? Xədicə kimi "hisəcikdən" yapışaraq İlham Əliyevin, hətta Heydər Əliyevin fəaliyyətinə qiymət vermək kimi əslində əlaqəsiz mətləblərə gəlib çıxmaq sağlam qəzetçilik mövqeyinin ifadəsinə oxşamır. Burada bəlkə elə Xədicənin özünün də indiyə qədərki fəaliyyətlərini yönləndirmiş "arxa mövqe qüvvələrinin" izlərini görməmək mümkün deyil. Xədicənin hansısa beynəlxalq təşkilatın mükafat kimi ayırdığı 19 min dolları indiyə qədər ala bilməməsi barədə narahatlıqları bölüşmək olar. Həqiqətən almalı və nuşcanlıqla xərcləməlidir. Ancaq beynəlxalq təşkilatın 20-30 min dollarlıq mükafatına layiq olmaq üçün Xədicə kimi mütləq yolu həbsxanadan düşmüş jurnalist olmaq kriteriyası çox çirkin görünür. Xədicədən də cəsarətli və peşəkar jurnalistlər var və olub ki, həbsxana çətinliklərindən keçmədən əl tutulası nə qədər problemlər yaşayıblar... Ağır xəstəliyə tutulmuş bir məşhur qələm sahibinə birbaşa yardım əli uzatmaq istəyən beynəlxalq təşkilat olsa, Azərbaycan hökuməti ona yoxmu deyər?! Xədicənin nəyi və hansı hərəkəti bəlli beynəlxalq təşkilatı 19 min dollarlıq "səxavət jestinə" məcbur edə bilir? "Məşhur Xədicənin" illərdi ki, Azərbaycan barədə silsilə məqalələr yazdığı mövzuları biz də, "Vaşinqton Post" rəhbərliyi də bilirik. Əlbəttə, Azərbaycanın neft, qaz, mədən, bank, maliyyə, daşınmaz əmlak sektorlarının antikorrupsiya araşdırmaları üçün qapalı mövzulara çevrilməsini iddia etmirik. Elə Xədicə üçün də qapalı bir şey olmadı. Doğru yazdıqlarının da, qərəzlə yazdıqlarının da hamısının "bəhrəsini" gördü. Gördüyü "bəhrə"nin xüsusi çəkisində obyektiv jurnalist qələmi və qərəzli intiqamçılığın hansının payının çox ya az olduğunu Azərbaycan ictimaiyyəti yaxşı bilir. Xədicə obyektiv araşdırmaçı jurnalist iradəsini sona qədər qoruya bildimi? Araşdıqmaçılıq yollarının hansı "nöqtəsində" kənar "yönətimçilərin" bu iradəni hədəflərlə uzlaşmayan yararsız nəsnə kimi boğub kənara atdıqlarını, ictimaiyyət olmasa da, Xədicə özü bilməmiş deyil.




**Nədən Əli Kərimlinin övladlarının maliyyə qaynaqları yox, İlham Əliyev...**

"Vaşinqton Post" rəhbərliyinin və kənar "yönətimçilərin" bilməli olduqları digər nəsnələr də var. Mən kimsənin, o cümlədən də Azərbaycan Prezidenti İlham Əliyevin və onun yaxın çevrəsinin fəaliyyətlərinin sağlam təftiş bucağından kənar tutulmasının bir normaya çevrilməsini tələb etmək fikrində deyiləm. Belə yanaşma cəmiyyətimizə heç bir saflaşan reallıq və dinamik perspektiv vəd edə bilməz. Ancaq Xədicənin tək İlham Əliyevi və onun yaxın ətrafını təftiş süngüsünün çoxillik hədəfinə çevirməsi yalnız iki motiv daxilində başa düşülə bilər: təmənnalılıq və qərəzlilik.

*(Ardı 9-cu səh.)*

*(Əvvəli 8-ci səh.)*

Əgər kimsə ictimai diqqətin yalnız ölkə prezidenti olaraq İlham Əliyevin üzərinə yönəldiyini arqument kimi gətirsə, burada sadəcə "pardon və stop"! Son illər ictimai diqqətin artan templə yönəldiyi başqa bir subyekt-persona da var axı... Milli Şuraçı Əli Kərimlinin xaricdə yaşayan və oxuyan övladlarının maliyyə qaynaqları ilə bağlı məsələ, Xədicənin bunu istəyib-istəməməsindən asılı olmayaraq, artıq öz cavabını, izahını gözləyən suallar kimi ictimai rəyə oturub. Əgər Xədicə "məşhuri-cahan" araşdıqmalarının bir neçəsini bu istiqamətə kökləyərək, növbədə mühacirlərin İnternet TV-lərinin arxasında erməni pullarının olub-olmadığını araşdırmağın da olduğunu desəydi, onun İlham Əliyev barədə "araşdırma materialları" kimi ora-bura soxuşdurduğu yazıları ciddi qəbul etmək olardı.

**Xədicə ermənilərin korrupsiyasını araşdırsa, "Vaşinqton Post"un qapıları onun üzünə həmən bağlanacaq...**

"Vaşinqton Post" rəhbərliyinin Xədicənin "korrupsiya araşdırmalarına" bu qədər birtərəfli aludəçiliyinin səbəbləri olmamış deyil. Bu səbəblərin arasında qəzetin "yönətimçi rəhbərliyinin" ermənipərəst, ya da anti-Azərbaycan qüvvələrlə ilişkilər içində ola bilməsi versiyasını heç cür kənara qoymaq olmur. Azərbaycanın ermənilər tərəfindən işğal olunmuş torpaqlarında talan edilən sərvətlər Xədicəyə də, "Vaşinqton Post" rəhbərliyinə də "kəşf edilməmiş Amerika" deyil. Talan edilmiş sərvətlər üzərində qurulan korrupsiya zəncirinin rəsmi İrəvandan başlayan ucları ta ABŞ-a, rəsmi Vaşinqtona, elə "Vaşinqton Post"un özünə qədər uzanır. Trampın "erməni oyunları"ndan əzəl başdan uzaq durması fonunda İrəvandan gələn korrupsiya uzantıları bir qədər dəbdən düşmüş kimi görsənsə də, olub, var və olacaq. Təəssüf ki, erməni talanları üzərində İrəvandan başlayan korrupsiya zəncirinin "araşdırmaçı aşıqına" çevrilmək nə Xədicənin yadına düşür, nə də "Vaşinqton Post"un əliuzun rəhbərliyi ona bunu "xatırladır". Sadə səbəb var: Xədicə ermənilərin korrupsiyasını araşdırsa, bu gün taybatay açılan "Vaçinqton Post" qapıları dərhal onun üzünə qapanacaq.

Görəsən, "Vaşinqton Post" öz müxbirinin, bir tanınmış jurnalistin İstanbulda konsulluqda tikə-tikə doğranaraq qətlə yetirilməsi kimi bəşəri cinayətin sonluğuna yetişmədən gündəmdən düşməsi ilə niyə belə tez barışır? Məntiqlə, bu qəzetin hər günlük sayı üz qabığında bədbəxt Kaşıkçının şəkli ilə açılmalı olduğu halda, biz nə görürük? "Vaşinqton Post" Kaşıkçının qətlində birbaşa suçlanan Səudiyyə şahzadəsinin korrupsiya içində olub-olmadığını araşdıran bir "Ərəb Xədicə" tapıb ortaya çıxara bilməzdimi? Ya elə bizim "məşhur Xədicə" özü Trinidad-Tobaqodan vurub Baham adalarından çıxaraq İlham Əliyevə aid bank hesabları düzüb-qoşduğu kimi eyni fəaliyyəti Səudiyyə, Küveyt, BƏƏ şeyxlərinin və şahzadələrinin üzərinə yönəldə bilməzmi? ABŞ-ın "qüsursuz dostları" olan bu dövlətlərdə korrupsiyanın "Vaşinqton Post" üçün nə qədər açıq mövzu olduğunu bilmək maraqlı olardı, deyilmi? Ancaq bilə-bilərdik. Əgər "məşhur Xədicə" azacıq vətənpərvər olmağı bacarsaydı və korrupsiya araşdırmaçılığı gücünü ABŞ-ın "qüsursuz dostları" olan ərəb dövlət rəhbərlərinin üzərinə yönəltsəydi... Ancaq bilə-bilə ki, Azərbaycanın bütün bankları İlham Əliyevin bircə kəlmə sözünə bənd olduqları üçün Prezidentin hansısa xarici ölkə banklarında hesab açmağa ehtiyac duymasını söyləmək məntiqsizlikdir, yenə də olmayan hesabları axtarmaq kimi yollarda ütünməkdən çəkinmir. Çünki bu yollarda cəfakeşlik onun özündən başqa kimlərəsə də gərəkdir...

**Kolin Pauelin 2003-cü ildə əlində Səddamın ampulasını tutmuş fotosu və...**

Görəsən azad mətbuatçılıq, tərəfsiz informasiya daşıyıcılığı iddiası ilə Xədicəyə "qucaq açan" və Azərbaycan mediasını qeyri-azad sayan "Vaşinqton Post" 2003-cü il fevralın 5-də o zamankı dövlət katibi Kolin Pauelin BMT TŞ-da "Səddamın nüvəsidir" deyərək bir ampulanı nümayiş etdirdiyi foto ilə İraq alt-üst edələndən sonra həmin Pauelin məşhur "Səddamın nüvə silahı yox idi, biz yanıldıq" müsahibəsini yenidən yanaşı çap edə bilərmi? Bilsə, Xədicə barədə iddiaların səmimiliyinə inanmaq olar. "Diktator" deyərək Əsədin başına od ələdiyi halda, ABŞ-ın Səudiyyə, Bəhreyn, Qətər, BƏƏ, Yəmən kimi ölkələrin rəhbərlərinin başını tumarlamasının səbəbləri barədə bir analitik yazı da "Vaşinqton Post"un səhifələrində görünsəydi çox maraqlı olardı. Onda tam inanmaq olardı ki, "Vaşinqton Post" "dərin dövlət"in ruporu yox, həqiqətən saf media prinsiplərinə söykənən informasiya orqanıdır. "Vaşinqton Post" belə təhlillərə ehtiyac olduğuna dair hər hansı eyham vursa, bu işi təmənnasız şəkildə şəxsən yerinə yetirmək imkanında olduğumu, məcburi qeyri-təvazökarlığa məhkum formada olsa da, demək istəyirəm. Normal qəzetləri, siyasi partiyaları, siyasi tənqid institutu, seçki sistemi olmayan bu ölkələri kölgədə buraxaraq bir Xədicəyə görə Azərbaycanı qaralamağın adı "Vaşinqton Post" yox, İKİLİ STANDARTdır.

D e m o k r a t i y a n ı öldürən təkcə qaranlıq və zülmətlər deyil. İkili standartlar demokratiyanın daha amansız qatilləri sırasına keçməkdədir. "Ərəb Xədicə"ni axtarmaq və "Vaşinqton Post"un devizini bu cür dəyişmək vaxtıdır:"İKİLİ S T A N D A R T L A R D E M O K R A T İ Y A N I ÖLDÜRÜR".

---

**Məlum olduğu kimi, xaricdə məskunlaşan bəzi radikal mühacir azərbaycanlılar internet televiziyası açıb dövlətə qarşı dağıdıcı xarakterli qərəzli kampaniya aparırlar. Sözügedən kanallarda ancaq müəyyən sifarişlərə uyğun olaraq təbliğat aparılır. Bu cür telekanalların maliyyə mənbələri qaranlıqdır. Telekanal açanlar bəyan edirlər ki, bunu öz vəsaitləri hesabına açıblar.**

# Xaricdəki mühacir azərbaycanlı radikalların öz gücləri ilə internet TV açmaq imkanları - pərdəarxası qüvvələri ifşa edən suallar...



## *Azər Həsrət: ”Müəyyən dairələr həmin adamlara internet televiziyası açaraq bundan öz məqsədləri üçün istifadə edirlər”*

Bu və digər məsələlərlə bağlı media eksperti Azər Həsrətə bir sıra suallar ünvanladıq.

**- Azər müəllim, xaricdə internet televiziyası açanlar bəyan edirlər ki, bunu öz vəsaitləri hesabına açıblar. Bu nə dərəcədə realdır?**

- Əvvəla xaricdə o cür internet televiziyası açanların böyük əksəriyyəti Azərbaycanda uğursuz adamlar olub. Yəni onlar burada, faktiki olaraq, heç bir iş görə bilmirlər və görmək də istəməyiblər. Çünki tənbəl və bacarıqsız olublar. Görüblər ki, ölkədə havayı çörək yoxdur, siyasətlə məşğul olmaq adı altında Avropaya gediblər. Siyasətlə heç vaxt heç bir əlaqələri olmadığı halda, qaçıb gedib Avropa ölkələrində özlərini siyasi mühacir kimi qələmə veriblər. Təbii ki, avropalılar ağılsız deyil. Onların real siyasi mühacir olmadıqlarını anladıqlarına görə həmin şəxslərdən istədikləri kimi istifadə edirlər. Burda təkcə avropalılardan söhbət getmir. Həm də ermənilərə işləyən mərkəzlər, eləcə də ayrı-ayrı ermənilər bu adamlardan istifadə edirlər. Müəyyən dairələr həmin adamlara internet televiziyası açaraq bundan öz məqsədləri üçün istifadə edirlər. Mümkün deyil ki, həmin radikal mühacirlər öz vəsaitləri hesabına internet TV aça bilsinlər. Bunun üçün böyük vəsait lazımdır. Ona görə də üçüncü qüvvələr bu adamlardan istifadə edirlər. Biz yeni texnologiyanın içində olan adamlar olaraq bilirik ki, ən adi vebsaytın saxlanması belə, böyük pullar hesabına başa gəlir. İnternet TV üçün xüsusi avadanlıqlar, yayım imkanları, yüksək sürətli internet lazımdır. Mühacirlərin şəxsi vəsaiti hesabına bunu ərsəyə gətirmək mümkün deyil.

**- Onlardan bəziləri iddia edirlər ki, şəxsi avtomobilini satıb televiziya açıb. Bu nə dərəcədə mümkündür?**

- Bu cür fikirlər, ümumiyyətlə, gülünc təsir bağışlayır. Çünki avtomobilin pulu ilə internet televiziyası açmaq mümkün və ağlabatan deyil. Kiminsə başının altına yastıq qoymasınlar. Azərbaycan cəmiyyəti nəyin nə olduğunu yaxşı bilir. Bu cür televiziyalar xaricdəki müəyyən dairələr tərəfindən maliyyələşdirilir. Məqsəd Azərbaycan dövlətini zəiflətməkdir. Yəni sözügedən mühacirlər öz ruhlarını şeytana satmış insanlardır. Belə insanlardan hər cür istifadə edilir.

## *”Belələri öz ruhlarını şeytana satmış insanlardır”*

**- Ən qəribəsi odur ki, görürsən, ümumiyyətlə, jurnalistika ilə əlaqəsi olmayan adamlar bu işlə məşğul olurlar.**

- Həqiqətən də belə hallar var və bu paradoksal mənzərə yaradır. Bu adamlar siyasətdə olmadıqları kimi, jurnalistikada da olmayıblar. Ancaq Azərbaycandakı radikal partiyalardan arayış almaqla bu cür fəaliyyətlə məşğuldurlar. Deməyim odur ki, bunlar mediaya aidiyyəti olan adamlar yox, fırıldaqçılardır. Fırıldaqçı olduqlarına görə də Avropadakı üçüncü qüvvələr onlardan hər cür istifadə edə bilir.

**- Bu cür televiziyalara ancaq müxalif mövqedən çıxış edən şəxslər dəvət edilir və interaktiv bölmədə yalnız onların mövqeyindən çıxış edən şəxslərin şərhləri yerləşdirilir. Hansısa əks fikrin ifadə olunmasına imkan verilmir. Buna nə ad vermək olar?**

- Bu onların sifarişlə işlədiyini sübut edir. Şərh bölməsinə əks fikir yazanda dərhal bloklayırlar. Dəfələrlə olub ki, bizim etik çərçivədə normal müzakirə aparmaq qabiliyyəti olan dostlarımız o müzakirələrə qatılıb öz fikirlərini səsləndirmək istəyiblər. Bu zaman həmin adamlar dərhal bloklanıb. Yəni özləri məqsədli şəkildə bu cür fikirlərin səslənməsinin qarşısını alıblar. Hansı ki, belədə fikir azadlığından, demokratiyadan dəm vururlar. Ancaq başda özləri buna əməl etmir və dözümlü yanaşmırlar.

**- Bəzən elə olur ki, həmin internet TV-lərdə yayımlanan canlı bağlantı zamanı əlaqə kəsilir. Texniki baxımdan belə halların yaşanması gözləniləndir. Ancaq həmin televiziyanı açanlar belə hallar zamanı dərhal bunu hakimiyyətlə əlaqələndirirlər.**

- Bu bir daha onların qərəzli olmasını ortaya qoyur. Nəzərə almaq lazımdır ki, Azərbaycan hakimiyyətinin onlarla bağlı problemi yoxdur. Ölkə hakimiyyəti ifadə azadlığına sadiq bir hakimiyyətdir. İstənilən şəxsin tənqidi fikirlərini ifadə etməsinə dözümlü yanaşır. Onların apardığı fəaliyyət fikir müxtəlifliyi yox, anti-Azərbaycan fəaliyyətidir.

***Vidadi ORDAHALLI***

**Azərbaycanın işğal edilmiş ərazilərində yaradılan separatçı rejim üzərində nəzarəti ələ keçirməyə çalışan Nikol Paşinyan iqtidarı gələn ilə qədər "Qarabağ klanı"nı tam şəkildə sıradan çıxarmaqda artıq israrlı olduğunu nümayiş etdirir. Klanın əsas təmsilçiləri sayılan Robert Köçəryan, Serj Sarksiyan, Seyran Ohanyan və digərlərinin hüquqi müstəvidə sıradan çıxarılması üçün 2008-ci il 1 mart hadisələrindən indi daha geniş istifadə olunur.**

# İrəvanda 2008-ci il 1 mart hadisələrinin dəhşətli detalları üzə çıxır






Hazırda istintaq tərəfindən toplanan ifadələr "Qarabağ klanı"nın əsas təmsilçilərinin aqibətinin yaxşı olmayacağını, onları uzunmüddətli həbslərin gözlədiyini deməyə əsas verir. Bunu Ermənistan Baş Qərargahının Kəşfiyyat İdarəsinə 10 il başçılıq etmiş general Arşak Karapetyanın 2008-ci il 1 mart hadisələrinə dair istintaqa şahid qismində verdiyi ifadələr də təsdiq edir.

Qeyd edək ki, Ermənistan ordusunun 2016-cı ilin aprel döyüşlərində aldığı zərbələrə görə Serj Sarkisyan tərəfindən işdən çıxarılan, lakin hazırda baş nazir Paşinyanın müşaviri olan general Karapetyan həmin hadisələr zamanı Azərbaycanla cəbhə xəttindən qoşunların çıxarılıb İrəvana göndərilməsindən danışıb. Karapetyan ifadəsində deyir ki, silahlı qüvvələrin komandanlığı 2008-ci ilin fevral-mart aylarında Azərbaycan Silahlı Qüvvələrinin cəbhənin müxtəlif istiqamətlərində, xüsusən də Qarabağda cəmləşdiyi bir vaxtda qoşunların İrəvana aparılmasını anlamırdı. Ordunun bəzi hissələri üçün isə bu yerdəyişmə qəbuledilməz idi. Generalın bildirdiyinə görə, nəinki Qarabağdan, hətta Ermənistan-Azərbaycan sərhədindən də qüvvələr çıxarılaraq İrəvana aparılıb. Bunlar isə o vaxt Ermənistana rəhbərlik edən Köçəryan - Sarksiyan cütlüyü üçün əlavə problemlər yaradır.

Xatırladaq ki, bundan əvvəl BBC-nin rus xidməti istintaq sənədlərinə istinadən Qarabağdan İrəvana göndərilən qoşunlara işğal edilmiş ərazilərdə yaradılan qanunsuz "hərbi birləşmə"nin komandir müavini Ohanovski ləqəbi ilə tanınan, general-mayor Samvel Karapetyanın komandanlıq etdiyini bildirib. İstintaq materiallarına əsasən, həmin qüvvələrin içərisindən nümayişçilərə güllə atmaq üçün 20 nəfərlik dəstələr yaradılıb, onlar Prezident Administrasiyasının zirzəmisində yerləşdirilib. İstintaqın rəyinə görə, bu cinayət əməlində Köçəryan və Sarkisyan, o cümlədən həmin günlərdə böyük nüfuza malik iki oliqarx deputat, "Çiçəklənən Ermənistan" partiyasının lideri Haqik Tsarukyan və Respublika Partiyasının fraksiyasının sabiq deputatı Samvel Aleksanyan da xüsusi rol oynayıb. Məhz belə bir vaxtda "Azadlıq" agentliyinə müsahibəsində general BBC-nin yaydığı sənədin altında öz imzası olduğunu təsdiqləyib: "Hər hansı əlavə məlumat, yaxud hansısa bir şey unutmuşam deyə, heç bir şey dəyişməyib... nə var yazılıb, imzalanıb, reallıq budur".

Dindirilmədə isə erməni general qeyd edir ki, 2008-ci il fevralın 23-də general-polkovnik Movses Akobyanla birlikdə Köçəryanın keçirdiyi müşavirədə iştirak edib. Bundan 2 saat sonra Qarabağdakı müxtəlif bölmələrdən toplanmış döyüşçülərdən tabor təşkil etməyə və İrəvana göndərməyə dair əmr var. Karapetyanın dediklərinə görə, tərkibində komandiri olduğu snayperlər də olmaqla, İrəvana 300 hərbi qulluqçu ilə gəlib: "Ümumi olaraq toplanmış, tərkibinə zabit və gizirlərin daxil olduğu tabor İrəvana ştat silahları, tam sursatla, özlərinin döyüş silahları ilə gəlib. Qoşun adi geyimdə olub. Lakin İrəvana gəldikdən sonra geyimlərin fərqlənmə nişanlarını söküblər". O, həmçinin qeyd edib ki, şəxsi heyət Qarabağdakı qoşunların qeydiyyat nişanları olan avtomobillərində olub. Lakin İrəvanda nömrələr dəyişdirilərək Ermənistan Müdafiə Nazirliyinin nömrələri taxılıb. O, qanunsuz "hərbi birləşmə" komandirindən verilən əmrə görə, qoşunların İrəvan qarnizon rəisinə hazırda 1 mart hadisələrinə görə ittiham edilən Yuri Xaçaturova tabe olacağını bilib. Verilən təlimatları Karapetyana əməliyyat qərargahının növbətçisi ötürüb. Lakin əməliyyat qərargahının harda yerləşməsindən xəbəri olmayıb. Onun Xaçaturovla yalnız hökumət binasında görüşdüyü deyilir. Ohanovskinin ifadələri indiki şəraitdə Köçəryan və Sarkisyan üçün qeyri-qənaətbəxş vəziyyət yaradır. Hətta bu bir ifadə belə onların konstitusiya quruluşunun dəyişdirilməsinə cəhd etməkdə ittiham edilərək uzun zaman azadlıqdan məhrum edilməklə mühakimə olunmasına yetərlidir. Ohanovskinin ifadəsi "Qarabağ klanı"nın liderlərini yalnız hüquqi cəhətdən yox, siyasi platformalarda da məhv edir. Ohanovski faktiki olaraq Silahlı Qüvvələrin siyasi proseslərə müdaxilə etməsinin birbaşa Köçəryanın əmri ilə həyata keçirildiyini sübut edir. Başqa sözlə, ölkədə cinayətkar oliqarx sisteminin saxlanması məqsədilə konstitusiya quruluşunun dağılması baş verib. Məhkəmədə ordunun 1 mart hadisələrinə qarışmasını birmənalı şəkildə inkar edən Köçəryan üçün bu ifadə hüquqi baxımdan əməlli-başlı problem yaradacaq. Ermənistanın "Armlur" xəbər portalı bu xüsusda yazır: "Ohanovskinin ifadəsinə yekun vuraraq təhlil etsək, belə çıxır ki, o özünü Köçəryanı qurban verməklə qurtarıb. İlkin araşdırma orqanı tərəfindən səmərəli iş aparıldığı halda asanlıqla 1 mart qətllərinə məhz Ohanovskinin rəhbərlik etdiyini əsaslandırmaq olar. Onun snayperlər qrupuna rəhbərlik etməsi bu versiyanın xeyrinə xidmət edir. O, İrəvana xüsusi missiya ilə gətirilib. Ona görə ki, Köçəryan və Sarkisyan təlim keçmiş atıcıları Qarabağdan gətirməklə Ermənistandakı güc strukturlarının rəhbərlərinə güvənməyib". Bütün bunlar 1 mart qətllərinə görə aparılan istintaqın tezliklə "Qarabağ klanı"nın axırına çıxa biləcəyini istisna etmir.

Klanın məhvindən sonra Paşinyanan zəbt olunmuş ərazilərdə gələn il keçiriləcək "prezident seçkilərində" öz adamını separatçıların başına gətirə biləcəyini yazan "Jamanak" qəzeti bildirir ki, bu fonda Qarabağ rejiminin lideri vəzifəsi uğrunda mübarizə daha da gərginləşir. Qəzet bildirir ki, qondarma rejimin "xarici işlər naziri" Masis Mailyan 2020-ci ildəki "prezident seçkisi"ndə iştirak edəcəyini açıqladıqdan sonra "Qarabağ klanı"nın indiyə qədər əsas namizədi olacağı təxmin edilən Vitali Balasanyanın mövqeləri zəifləməyə başlayıb. Qəzet qeyd edib ki, Mailyanın namizədliyini irəli sürməsi fikri reallaşacağı halda onu qondarma rejimin indiki rəhbəri Bako Saakyan, eləcə də hakimiyyətyönlü Demokratik Partiya və "Daşnaksütyun" da dəstəkləyəcək. Qeyd edək ki, Balasanyan qondarma rejimin "təhlükəsizlik şurası"nın keçmiş rəhbəridir. O, indiyə qədər hazırkı Ermənistan hakimiyyətilə ən sərt qarşıdurma yaşamış şəxs sayılır. Erməni mətbuatı Balasanyanın məhz bu qarşıdurmaya görə Paşinyanın istəyi əsasında istefaya göndərildiyini bildirib. "Jamanak" yazır ki, "Qarabağ klanı" arasında yaranmış ziddiyyət də indiki halda Paşinyanın lehinə işləyir.

***Nahid SALAYEV***

**Həmin görüşdə mən də çıxış edib tarixi dövrün ruhuna və keçirilən görüşün ciddiliyinə uyğun olaraq, öz qəzetimizin qayğılarından yox, dövlətin qayğılarından danışmağa üstünlük verdim.**

# Söz haqqı...

## Millətin öz yeri, dinin öz yeri...

(esse)



**Akif ƏLİ,**
*Yazıçı-publisist, fəlsəfə doktoru*

***(Əvvəli ötən sayımızda)***

Sovet imperiyasından qurtularaq yenicə müstəqillik əldə etmiş milli dövlətimizin özünün təxirə salınmadan elmi əsaslar üzərində yeni milli ideologiyasının hazırlanmasının vacibliyindən danışdım. Ümumiyyətlə, o vaxtlar mətbuatda, ali məktəb auditoriyalarında "Dövlət və İdeologiya" mövzusunda tez-tez məqalələrim, çıxışlarım, müsahibələrim olurdu. Prezident səlahiyyətlərini icra edən yüksək vəzifəli şəxslə görüşdə də kommunizmdən fərqli milli İdeoloji konsepsiyanın işlənməsindən söz açıb, milli dövləti əski sovet dövlətindən fərqləndirən cəhətlərin imperiyadan yeni çıxmış sadə xalq kütlələrinə daha ətraflı izah edilməsinin zəruriliyini bildirdim. İctimai-siyasi, mənəvi-mədəni sahələrdə özgür milli dəyərlərimizin geniş təbliğinin digər dövlət işlərindən heç də az əhəmiyyət kəsb etmədiyini dedim. Və qeyd etdim ki, yeni dövlət quruculuğu prosesində kütlələr arasında indiki hakimiyyətin, əvvəlkindən fərqli olaraq, öz xalqımıza məxsus milli, mədəni, tarixi köklər üzərində dayaqlandığı barədə izahat işləri mütləq aparılmalıdır. Belə iş kütləvi şüurda milli dövlətçilik amalına bağlılığı artırmaq, xalqı dövlətin ətrafında daha sıx birləşdirmək üçün lazımdır. Sözümün sonunda təklif etdim ki, bu işlərin qurulması üçün ən yüksək səviyyədə ölkə rəhbərliyinin iradəsi ortaya qoyulmalı və Aparatda müvafiq qurum yaradılmalıdır.

Mən sadəlövhcəsinə qlobal məsələlər haqqında düşünüb danışsam da, sonradan bəlli oldu ki, xalqın dəstəyi ilə hakimiyyəti ələ keçirən xalqın sevimli liderləri xalqdan tam arxayın olduqları üçün daha xalqın nümayəndələrinə məhəl qoymurlar. Respublikada tam səlahiyyət sahibi olan rəhbər şəxsin ciddi məsələyə özfəaliyyət səviyyəsində reaksiyası çox təəccüblü oldu. Başının böyük dövlət işlərinə qarışdığını deyən faktiki Prezident məni dinlədikdən sonra özünəməxsus təmkinlə "belə xırda məsələlər dövlətin yox, siz jurnalistlərin işidir"deyib, ideoloji işi qəzetçilərin özlərinin aparmalı olduğunu tövsiyə etdi... Belə yanaşma təkcə dövlət idarəçiliyindəki təcrübəsizlikdən yox, həm də nəzəri hazırlıqsızlıqdan irəli gəldiyi üçün mütəəssiredici idi. Mən "i.o. Prezidentin" dövləti təfəkkürdən uzaq rəhbər tövsiyəsinə daha çox ona görə təəssüf etdim ki, bu minvalla "bəy"lərin müstəqil dövlətimizi qura və qoruya biləcəklərinə inamım azaldı...

Onu da deyim ki, mənim təklifim təkcə təhsil aldığım Bakı Ali Partiya Məktəbində və sonra da kafedra müdiri kimi çalışdığım Bakı Sosial İdarəetmə və Politologiya İnstitutundakı tədris prosesində topladığım nəzəri biliklərdən irəli gəlmirdi. Gənc milli hökumətin ideoloji işə ciddi yanaşması barədə təklifim həm də tarixi təcrübədən irəli gəlir, bizdən öncə əski imperiyanın küllükləri içərisindən çağdaş, demokratik Türkiyə Cümhuriyyətini qurmuş Qazi Mustafa Kamal Paşanın dühasından qaynaqlanırdı. Atatürk deyirdi: "Qabaqcıl hökumətçiliyin fərqləndirici xüsusiyyəti - xalqı öz qüdrətinə və böyüklüyünə səmimiyyətlə inandıra bilməkdir. Bu fikrin böyüklü-kiçikli bütün Cümhuriyyət məmurları arasında ən geniş şəkildə yayılmasına önəm vermək lazımdır."

...Cəmi bir il sonra artıq keçmiş sovet hakimiyyətinin xiffətini çəkməyə başlamış xalq kütlələrinin Gəncə hadisələrindən sonra elçibəyçilərin süqutunu sükutla qarşılaması iqtidar məmurlarının bütün digər sahələrdəki uğursuzluqları ilə yanaşı, həm də "bəy"lərin xalqla səriştəsiz işinin və biganəliyinin adekvat cavabı idi...Bu gün Elçibəy iqtidarının "devrilməsi" barədə yanıqlı versiyalar yürüdən səmimi vətənpərvər insanlar məsələyə birtərəfli yanaşmadan nəzərə alsınlar ki, AXC-Müsavat hakimiyyətinin əsl məqsəd, məram, niyyət və fəaliyyət tərzindən baş açmaq içərisində yaşadığımız o dövrün özü kimi çox çətin, anlaşılmaz və çox da mürəkkəb idi.

Nə isə... Keçmiş olsun!

***

Qayıdaq mövzumuzun davamına. Demək, səriştəsizlik ucbatından Sovetlərdən sonrakı ilk illərdə yaranmış ideoloji boşluğu dörd-bir tərəfdən təcrübəli və məkrli xarici qüvvələrin dini-ideoloji qanadı dərhal gördü və fövrən dəyərləndirdi. Onlar fürsəti fövtə vermədən özlərinə məxsus pərdəli üsullarla dini görüşlərin, cərəyan və məzhəblərin, ideoloji basqıların selini gur axınla ölkəmizə doğru yönəltdilər. Yaranmış xaotik, qarmaqarışıq mühitdə həm yaşlı, həmdə gənc nəsil dediyimiz obyektiv və subyektiv səbəblər üzündən ümummilli orientiri müstəqil müəyyən edə bilmir və müxtəlif yad təsirlər altına düşürdülər. Həm dini, həm siyasi, həm iqtisadi təsirlər və s.

Belə təsirə düşmələrin ən "millisi" - din sayıldı. Əsrlər boyu qana işləmiş islami dəyərlərə hörmət nümayişi kimi kütlə arasında təqdir olundu, ən əsası isə, əlavə bilik öyrənmək, nəsə oxuyub axtarmaq, araşdırmaq "əzabından" can qurtaran asan yol kimi bütün zümrələrə sərf etdi. Üst düzəndə belə "sərfəli və təhlükəsiz" dinəqapanma "hərəkatı" sabitlik amili kimi təqdir olunsa da, axan gur həlməşik selin içində ən müxtəlif dini məzhəblərim, cərəyanların, hərbi-siyasi ekstremizmə qoşulan qüvvələrin, təxribatçı-casus şəbəkələrin mövcudluğu az sonra narahatlıq doğurmağa başladı. Əlbəttə, milli təhlükəsizlik və hüquq-mühafizə orqanları sonralar böyük əmək, şücaət sərf edərək, hər dəfə bu "təhlükəsiz təhlükələrin" qarşısını qətiyyətlə ala bildi. Ancaq onların ümumiyyətlə ölkəmizə ayaq açmaması, beyinlərə girməməsi üçün fürsət əldən verilmişdi...

Aydındır ki, kənar dini ideologiya da ölkəni və xalqı öz köklərinə yaxınlaşmaqdan aralı saxlayan Kommunist ideologiyasının başqa forması idi. Hər ikisinin ifrat gəlişmə halında xalq öz tarixini çox uzaqda təsəvvür etmir, öyrənməyə stimul olmur, cəmiyyət buna heç ehtiyac duymur. Dünyanın ən müasir dövlətlərində yaşayan ən qədim xalqların (yapon, çin, hind, ingilis, fransız, italyan, alman və s.) bu gün də ən azı beş-on min illik qədim tarixini, eramızdan əvvəlki dövrlərdən baş alıb gələn mədəniyyətini, qədim mənəvi-əxlaqi dəyərlərini, adət-ənənələrini qoruyub saxladığı halda, Azərbaycandan qılıncla kəsilib ayrılmış qədim tarixi dəyərlər, normalar, adət-ənənələr, bayramlar, abidələr və s. uzağı bir min ilin çevrəsində dövr etdirilir. Və yanlış olaraq (əslində, savadsızlıq əlaməti olaraq) milli-mənəvi dəyərlər dedikdə yalnız dövriyyədə olan islami dəyərlər nəzərdə tutulur.

Halbuki, ən elementar insanşünaslıq elmi onu deyir ki, xalqın milli kimliyi onun dinindən əzəldir. Hər bir xalqın tarixi hər bir dinin tarixindən qədimdir. Öncə - millətin varlığıdır. Sonra gələn dəyər ondan üstün ola bilməz. Müasir din qədim milləti izah edə bilməz. Xalq öz yerində var olmalıdır ki, gələn dini qəbul etsin...

Bu məntiqlə otaylı-butaylı bütöv Azərbaycanın tarixi daha qədimdir, çox-çox qədimdir. Unutmayaq ki, İslamdan xeyli əvvəldən əcdadımız Oğuz türkünün tək Tanrısı olub. Bu dünyabaxışın işartılarını andlarımızda, dualarımızda, inanclarımızda tapmaq olar. Dünyada ilk səmavi Kitab ("Avesta") endirilən və bütün sonrakı dinlərə Xeyir-Şər anlayışını, rahat həyat tərzinin sirri kimi"Doğru Düşünmək, Doğru Danışmaq, Doğru Yaşamaq" konsepsiyasınıeradan xeyli qabaq gətirən şəxsiyyət - Azərbaycan torpağında doğulmuş Zərdüşt peyğəmbər olub.Yaddan çıxartmayaq ki, ətirli-dadlı, şirin-şəkər, gözəl Novruz bayramının bütün ruhu, bütün əlamətləri hələ eradan çox-çox qabaqlar məişətimizdə var olan (və insanlarımız kimi inanclarımızı da qılıncdan keçirən ərəb ideoloqlarının şərlə aradan çıxartdığı) Atəşpərəstlikdən - Təbiətlə vəhdət inancından gəlir. Bizim babalar hələ neçə min illər öncədən güc, qüdrət, həyat mənbəyi kimi enerjiyə - Günəşə, İşığa, Oda-alova minnətdarlıq inancını yaradıb-yaşatdığı halda, dünya bu gün enerjiyə möhtac qalıb qədrini bilir, diqqət yetirir, üstündə cəngi-cidal edir...

Kölgəsində nə qədər məşhur yazarın, alimin daldalandığı, bəzən hətta üzünü köçürüb "əsərim" dediyi nadir "Dədə Qorqud" dastanının dili, ruhu, təfəkkür tərzi, bəzi "etalon ziyalıların" qələmə verdiyi kimi, nə XI əsrin, nə V-VI əsrin deyil, daha qədim dövrlərin abidəsidir. Qorqudşünaslar məgər görmürmü o əlyazmalara üzköçürənlər tərəfindən sifarişlə sonradan ağ yamaqlar vurulduğunu?! Tədqiqatçılar bu nadir incinin qədim yunanların oxşar əsatir süjetlərindən də öncəki məxəz olduğunu görməlidir axı... Yaxud dahi Nizami Gəncəviyə sevgidən bayıldığını deyən ziyalılar, alimlər, sənətçilər niyə də Azərbaycan xalqının tarixini saxtalaşdıran savadsız nadanlara başa salmırlar ki, "İsgəndərnamə"də Azərbaycan qadınının biliyinə, fərasətinə, əxlaqına heyran qalan fateh Makedoniyalı İsgəndərin qədim mədəniyyət mərkəzi olan Bərdə hökmdarı Nüşabə xanımla görüşünün tarixi real rəqəmlərdə daha uzaqlaracan gedib çıxır!

Təbii ki, min ildən çoxdur xalqın dilindən düşməyən "Qırx il kölə kimi yaşamaqdansa, bir gün azad yaşamaq yaxşıdır!" - kimi mərdanə deyimin sahibi ulu Babəkin bu Vətən yolunda kimlər tərəfindən şaqqalandığını qulaqardına vuran cahildən vətənsevər olmaz! Bizim ərazilərdə özünə dövlət yaratmış bədnam qonşumuz saxta xəritələr düzəldərək dənizdən-dənizə uydurma "Böyük Ermənistan" ərazisi cızdığı, xəyali Böyük Tiqran, Sasunlu David və s. "qəhrəmanlar" quraşdırdığı halda, dünya fatehləri arasında yer alan qüdrətli dövlət xadimi, şanlı Azərbaycan sərkərdəsi Şah İsmayıl Xətainin nəhəng imperiya qurmaq bacarığından (Səfəvi dövlətinin bayrağında bugünədək gəlib çatan rəmzlərimiz - səkkizguşəli ulduz və aypara var idi; eynən Cavad xanın bayrağında da həmin səkkizguşəli ulduz olub), real qəhrəmanlığından qürurla danışmaq əvəzinə, Orta əsrlərə qayıdıb Kişinin sünni-şiəliyindən yapışan "ziyalı"dan millət qeyrəti çəkən olmaz!

Sadalanan bütün bu kimi saysız-hesabsız tarixi, mədəni, mənəvi, əxlaqi detallar imperiya əsarəti zamanı xalqdan gizlədilərək, cəmiyyətin mədəni-mənəvi aurasında prioritetə çevrilmədiyi üçündür ki, indi nadanlar Azərbaycan xalqının milli kimliyini asanca qafalarına taxdıqları naməlum dini hədislərlə izah edir, milli-mənəvi dəyərlərimizi dini dəyərlərlə eyniləşdirir, milli mədəniyyətimizi dini fəaliyyət məhsulu kimi qələmə verirlər. Və məhz məlumatsızlıq üzündən bu əsassız fikirlərində hələ bir israr edirlər.

Müasir cəmiyyətimizdə xalqın birliyini və tərəqqisini təmin edə bilən, dünyaya özgür simasını tanıda bilən, müasir milli ideologiyamızın əsasında durmağa layiq olan Azərbaycan xalqının unutdurulmuş qədim tarixinə, mədəniyyətinə, mənəviyyatına dair belə misallar çox-çoxdur. Zəhmət çəkib (təbii ki, dövlətin dəstəyi ilə) onları üzə çıxarıb müasir dövrə uyğun şəkildə konseptuallaşdırmaq, xalqın istifadəsinə qaytarmaq, cəmiyyətin dövriyyəsinə vermək əvəzinə, özünü gücə salmadan dar bir dalana qapanıb qalmaqla, gözünü göyə dikib "Allahdan buyuruq, ağzıma quyruq!" - deməklə, yerdəki ümmanı isə görməzdən gəlməklə xalqa xidmət, millətə qiymət vermək olmaz, olsa da yanlış olar. Dinin öz yeri var, Millətin öz yeri...

Yekunda qeyd edək ki, yanlış ideoloji səmtə, yanlış dini cərəyanlara qulluq edən hər saxtakar ziyalı təhlükə mənbəyidir. Çünki beləsi "düşüncə qaranlığına işıq tutmaq" əvəzinə (Hacı Bektaş-i), öz qaranlıq düşüncəsi ilə insanlar arasında saçmasapan qaranlıqlar yayır. O sanki dar ağacına çəkdiyi adamın ayağının altından kətili vurub yıxan cəlladın tayıdır. Özünün hər çaşqınlıq yaradan cəfəng fikri ilə xalqın ayağının altından üzərində boy atıb dayandığı özül dəyərləri vurub yıxmaqla məşğuldur. Hərçənd, xalqın özül dəyərlərinə qəsd edən "hərşeyşünas müştəbehin" cavabı çox sadədir: əgər müasir demokratik düzəndə cahilin söz demək haqqı varsa, qarşılığında müdrik xalqın da səsvermək hüququ var!

Xəlqi görüntüsü yaratmaq üçün "Türk oğlu türkəm!" - desə də, Vətən türklərinin uzaq tariximizdə yaratdığı-yaşatdığı qədim-qaim dəyərləri görməyib, yaxın tarixlərdə qumlu səhralardan əsən yellərə qucaq açan idrakı sönük "ziyalı"lara görkəmli türk ziyalısı Abdulla Şaiqin "Ananın öz oğluna layla deməsi" şərqisini xatırlatmaq bəlkə fayda verər:

Lay-lay mələkim, sevdiciyim, yavrucuğum, yat!
Bir də ələ düşməz bu çocuqluq dəmi, heyhat!
Türk oğlusan, əcdadın ulu, şanlı, sərəfraz;
İştə vətənindir, a quzum, şanlı bu Qafqaz...

# Azərbaycanın aqrar sektorunda inqilabi gediş...

**Aqrar sahədə uzun müddətdən bəri həllini gözləyən daha bir mühüm problem, nəhayət, dövlətin müdaxiləsi ilə həllini tapdı. Sözbət aqrar sahədə sığorta mexanizminin tətbiqindən gedir. Xatırladaq ki, Prezident İlham Əliyevin fərmanı ilə Azərbaycanda "Aqrar Sığorta Fondu" qeyri-kommersiya hüquqi şəxsi yaradılıb.**

Fərmanda göstərilir ki, fond ölkədə aqrar sığorta sisteminin təşkilini, inkişafını və dayanıqlılığını, idarəedici qurumun formalaşdırılmasını təmin edəcək və onun fəaliyyətinə nəzarəti həyata keçirəcək. Nazirlər Kabinetinə fondun nizamnaməsini Kənd Təsərrüfatı Nazirliyinin və Maliyyə Bazarlarına Nəzarət Palatasının təklifləri əsasında təsdiq etmək tapşırılıb. Bundan başqa, "Aqrar sığorta" informasiya sisteminin əsasnaməsi, bu sistemə inteqrasiya ediləcək informasiya sistemlərinin və onlardan əldə olunması nəzərdə tutulan məlumatların siyahısı hazırlanacaq.

Fondun ilkin nizamnamə kapitalı bir milyon manatdır və dövlət büdcəsinin vəsaiti hesabına formalaşır. O da qeyd olunur ki, dünyada mövcud olan aqrar sığorta modelləri araşdırılaraq, mütərəqqi kənd təsərrüfatı sığortası sistemi olan ABŞ, Kanada, İspaniya, Türkiyə, İsrailin bu sahədə təcrübəsi öyrənilib. Ölkələrin kənd təsərrüfatı mütəxəssislərin görüş və səfərləri, əldə edilmiş razılıqlar, təcrübə mübadilələri bu sahədə mövcud sistemləri dərinliklə öyrənməyə imkan verib. Həmin modellərin üstün və zəif cəhətləri araşdırılaraq, Azərbaycan üçün dövlət-özəl tərəfdaşlığını əsas tutan model hazırlanıb. O da bildirilir ki, yeni sığorta mexanizmi Azərbaycanda ilk dəfə olaraq, müştərək sığorta sisteminin yaradılmasını nəzərdə tutur. Müştərək sığorta sistemi sığortaçıların birgə vəsaitləri ilə özlərini sığorta etdirməsidir. Sığorta şirkətlərinin etdiyi sığortadan fərqli olaraq, bu sistemdə heç bir sığorta hadisəsi baş vermədikdə yığılmış vəsaitlər silinmir və növbəti ilə saxlanılır. Üstəlik, dövlət sığorta vəsaitinin müəyyən edilən faizi həcmində sığorta edilənlərə subsidiya ayıracaq. Təkrarsığorta siyasəti və sığorta risklərinin düzgün qiymətləndirilməsi nəticəsində bu sahədə dayanıqlı və effektiv fəaliyyət təmin ediləcək, katastrofik fəlakətlər zamanı dövlət büdcəsinin artıq yüklənməsinin qarşısı alınacaq. Bu tədbirlər çərçivəsində etibarlı kənd təsərrüfatı sığortası mexanizminin tətbiqi qeyri-neft sektorunda ÜDM-nin artırılması ilə yanaşı, ərzaq təhlükəsizliyinin təmin olunmasına və aqrar sektorun investisiya cəlbediciliyinin yüksəlməsinə də müsbət təsir göstərmək imkanına malikdir. Nəticədə yeni aqrar sığorta sisteminin tətbiqi kənd təsərrüfatı istehsalının davamlılığının təmin edilməsinə yönəlib.



Ekspertlər hesab edir ki, aqrar sığortanın tətbiqi fonunda kənd təsərrüfatı məhsullarını istehsalında qarşıdakı dövr ərzində dinamik artım gözləmək olar. Məsələn, iqtisadçı ekspert Pərviz Heydərov qeyd edir ki, kənd təsərrüfatı sahəsində sığorta iqtisadiyyatın digər sahələrindən daha çox vacibdir. O bildirib ki, bu sahədə qəbul olunan qanun aqrar sığortanın hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyən edəcək: "Aqrar sığorta haqqında" Azərbaycan Respublikasının 2019-cu il 27 iyun tarixli 1617-VQ nömrəli Qanununun tətbiqi və Aqrar Sığorta Fondunun yaradılması barədə Azərbaycan Respublikası prezidentinin Fərmanı böyük əhəmiyyət kəsb edir. Qanunun girişində də yazıldığı kimi, ölkədə aqrar sahədə risklərin müştərək sığorta mexanizmi vasitəsilə sığortalanması ilə bağlı münasibətləri tənzimləyir, aqrar sığortanın hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyən edəcək". İqtisadçının sözlərinə görə, Azərbaycanda aqrar sığorta ümumilikdə kənd təsərrüfatının inkişafına bağlı məsələdir: "Belə ki, sığortanın müvəffəqiyyətli tədbiqi bütövlükdə aqrar sektorun inkişaf səviyyəsindən asılıdır. Çünki sığortanın əsas prinsiplərindən biri budur ki, sığorta olunan tərəfindən müvafiq ödəniş həyata keçirilsin. Son illər ərzində aqrar sahəyə xüsusi diqqət yetirilməyə başlanıb. Hökumət başa düşür ki, həm ölkənin valyuta bazarında sabitliyi qorumaq, həm ərzaq təhlükəsizliyini təmin etmək, həm də idxaldan asılılığı azaltmaq üçün kənd təsərrüfatı istehsalını artırmaq lazımdır. Bunun da əsas yolu aqrar sahədə kiçik və orta sahibkarlığın inkişafından keçir. Aqrar sığortanın tam effektiv tətbiqi də o zaman mümkün olacaq ki, aqrar sektorda gəlirlilik indikindən azı 2-3 dəfə yüksək olsun".

Kənd təsərrüfatı üzrə ekspert Nicat Nəsirli isə diqqəti ona yönəldir ki, kənd təsərrüfatında obyektiv və subyektiv risklər mövcuddur. Onun sözlərinə görə, hava şəraitinin dəyişməsi, dolu düşməsi, leysan yağması kənd təsərrüfatı məhsullarına 30-40 faiz həcmində zərər vura bilir: "Ona görə də bütün dünyada kənd təsərrüfatında aqrar sığorta sistemi tətbiq olunur. Məqsəd isə budur ki, fermerlərin il ərzindəki ziyanlarının bir hissəsi dövlət tərəfindən qarşılansın". Ekspert bildirib ki, bundan sonra növbəti addım kimi aqrar sığorta sisteminin mexanizmləri işlənəcək: "Ümumiyyətlə, aqrar hadisənin iddiaları dəqiq bilinməlidir. Yəqin ki, bununla bağlı qaydalar hazırlanacaq. Əsas iştirakçılardan biri də Maliyyə Bazarlarına Nəzarət Palatasıdır. Bilirsiniz ki, maliyyə qurumları Palatanın üzvüdür. Onların koordinasiyasını həmin Palata həyata keçirir". N.Nəsirlinin fikrincə, mövcud vəziyyət ondan ibarətdir ki, hər il aqrar sığorta məqsədilə bir milyon manatdan çox vəsait ayrılır, lakin bunun cüzi hissəsi istifadə edilir: "Çünki bizdə aqrar sığorta bazarının iştirakçıları aktiv deyil. Azərbaycanda 18 sığorta şirkəti fəaliyyət göstərir, onlardan da cəmi üçü bazara aqrar sığorta alətlərini təqdim edir. Fikrimcə, bundan sonra banklara dövlət zəmanəti veriləcək. Məqsəd isə budur ki, banklar aqrar sığortanı ödəyəndə fermerdən asılı olmayan məsələlər ortaya çıxanda zərər ödənilsin".

Onu da bildirək ki, gələn ildən icraya yönəldiləcək sığorta modelində vahid fond olacaq. Bütün risqlərin maliyyələşməsi də bu fond hesabına həyata keçriləcək. Bu isə təkrar sığorta imkanları yaradacaq. Təkrar sığorta şirkətləri vahid daxılı sığortalamaqda maraqlı olacaqlar. Halbuki, onlar ayrı-ayrı sığorta şirkətlərinin üzərinə götürdüyü risqləri sığortalamaq istəmirlər. Bundan əlavə, yeni kənd təsərrüfatı sığortası modeli sığorta şirkətlərinin fermerlərlə vahid fond arasında vasitəçi funksiyası yerinə yetirərək komisyon haqqı almasını nəzərdə tutur. Sığortaçı fondun adından müqavilə imzalayır və buna görə haqq alır. Fermer sığorta haqqının bir hissəsini ödəyəcək. Qalan hissəsini dövlət subsidiya formasında ayıracaq və fonda ödəyəcək. Yəni sığorta haqqının fermerin üzərinə və dövlətin üzərinə düşən hissəsi olur və hər ikisi fonda ödənilir. Sığorta hadisəsi olduğu təqdirdə sığorta şirkətinə məlumat verilir, şirkət isə fonda məlumat verir. Hadisə üzrə müstəqil ekspert təyin olunur və o, zərərin məbləğini fonda bildirir. Fond ödənişi birbaşa fermerin bank hesabına köçürür. Məhz bu fonda fermerlərin aqrar sığortaya marağının əhəmiyyətli dərəcədə artması gözlənilir. Hesab edilir ki, belə vəziyyətdə aqrar sahədə məhsuldarlıq əhəmiyyətli dərəcədə artacaq.

***Tahir TAĞIYEV***

# Məhərrəmlikdə Azərbaycanı yad islamçı cərəyanların müdaxiləsindən qorumaq üçün mühüm addım...

**Məhərrəmlik ayının başlanmasına iki həftəyə yaxın vaxt qalıb. Ölkəmizdə də qeyd edilən Məhərrəmlik cəsarətin, rəşadətin, zülmə qarşı mübarizənin, haqq uğrunda savaşın gerçək bir simvoluna çevrilib. İslam şəhidlik məktəbinin simvolu olan İmam Hüseynin xatirəsinin anıldığı, onun şücaətinin, haqq-ədalət uğrunda verdiyi mücadilənin xatırlandığı bu ay öz özəlliyi ilə diqqəti çəkir.**



### *İsmayıl Əhməd: "Ən böyük təhlükələrdən biri Məhərrəmlik mərasimlərində insanlara Məhərrəmlik fəlsəfəsinin deyil, xurafatın çatdırılması ilə bağlı ola bilər"*

### *Hacı Təyyar Hüseynli: "Azərbaycan dövlətinin əleyhinə təxribatlar törədən, ölkəmizdə ictimai-siyasi sabitliyi pozmağa cəhd göstərən müəyyən qüvvələr bu matəm mərasimlərindən..."*

Məlum olduğu kimi, sentyabrın 1-də müsəlman dünyasında Məhərrəmlik ayı başlanır.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov Astarada "Din və ideoloji təhlükəsizlik" mövzusunda keçirilən seminar-müşavirədə qurumun Məhərrəmlik ayı ilə bağlı mövqeyini açıqlayıb. O qeyd edib ki, Məhərrəmlik ayının başlanması ilə əlaqədar məscidlərdə və digər ibadət yerlərində dini mərasimlərin icrası zamanı Qafqaz Müsəlmanları İdarəsinin verdiyi fətvanın tələblərinə ciddi riayət olunması vacibdir.

Komitə rəsmisi bildirib ki, hazırkı dövrdə dünyanın bir çox dövləti dini ekstremizm və terrordan ciddi əziyyət çəkir, terror hadisələri səbəbindən bölgələrdə ictimai sabitlik pozulur: "Dinin əhalinin dinclik və etibarına təsir edəcək şəkildə terrorçu və ekstremist qruplar tərəfindən istismarı dövlət təhlükəsizliyi üçün böyük təhdid yaradır. Bu baxımdan dinin insan mənəviyyatında, əxlaqında və ictimai şüurunda oynadığı mühüm rolun və təsirin doğru məcraya yönləndirilməsi mühüm məsələdir".

Sədr müavininin bildirdiyinə görə, ölkəmizdə din dövlətdən ayrı olsa da, dövlət ölkədəki dini duruma və vətəndaşların təhlükəsizliyinə görə bilavasitə məsuliyyət daşıyır.

Dövlətimizin dini ekstremizmin qarşısının alınması, vətəndaşlarımızın yad dini ideologiyaların təsirindən qorunması, ölkədəki dini durumun sabit saxlanması istiqamətində həyata keçirdiyi tədbirlərin önəminə diqqət çəkən sədr müavini hazırda dünyada, xüsusilə müsəlman ölkələrində sabitliyin pozulmasında din amilinin xüsusi rol oynadığını və beynəlxalq güclərin bu vəziyyətdən məharətlə istifadə etdiyini diqqətə çatdırıb. Cəmiyyətdə dini biliklərin yetərsizliyinin insanpərvərlik prinsipləri ilə ziddiyyət təşkil edən zərərli fikirlərin, məzhəbçilik və təriqətçilik kimi mənfi təzahürlərin yayılmasına səbəb olduğunu nəzərə çatdıran S.Heydərov bu kimi tendensiyalarla mübarizədə ən səmərəli metodlardan birinin maarifləndirmə işinin gücləndirilməsi olduğunu deyib.

Komitə sədrinin müavini çıxışında, həmçinin, ölkəmizin təhlükəsizliyinə mümkün təhdidlərin qarşısının alınmasında ən mühüm vasitə olan vətənpərvərlik, dövlətçilik amallarının, milli-mənəvi irsin, adət-ənənələrin aşılanması, cəmiyyətin, xüsusilə gənc nəslin dini dözümlülük və tolerantlıq mədəniyyətinin inkişaf etdirilməsi ruhunda tərbiyə olunmasının önəmindən danışıb.

Məhərrəmlik ayında yad islamçı qüvvələr dini kəsimləri hansısa bir təhlükəli addım atmağa vadar etməyə cəhd göstərə bilərmi? Söhbət hansı təhlükələrdən gedir?

Tanınmış ilahiyyatçı İsmayıl Əhməd "Bakı-Xəbər"ə bildirdi ki, ola bilsin, bəzi qüvvələr əhali arasında xurafat yaymaqla məşğul olsun. "Ən böyük təhlükələrdən biri Məhərrəmlik mərasimlərində insanlara Məhərrəmlik fəlsəfəsinin deyil, xurafatın çatdırılması ilə bağlı ola bilər. Yaxud xarici ölkələrdən bəzi təbliğatçıların bura gəlib Məhərrəmlik məclislərini aparması məsələsi də istisna deyil. Əgər komitənin bəyanatında bu məsələ nəzərdə tutulursa, bu çox müsbət haldır. Azərbaycanda Məhərrəmlik mərasimlərində məscidlərdə insanlara maarifçilik xidməti göstərəcək kifayət qədər savadlı ruhanilər, insanlar var" - deyə İ.Əhməd bildirdi.

İlahiyyatçı Hacı Təyyar Hüseynli də qeyd etdi ki, ölkəmizin dini kəsimləri, xüsusən də şiə məzhəbinə aid olanlar Məhərrəmliyi iki aylıq matəm kimi keçirirlər. "Əlbəttə, Məhərrəmlik və bu matəm təkcə İslam dünyası üçün deyil, bütün dünya üçün düşündürücü bir məsələdir. Yəni bəşəriyyətin sonuncu elçisinin ailəsinə, nəvəsinə qarşı əsrlər əvvəl 30 min nəfərlik ordu tərəfindən tarixdə misli görünməyən belə bir haqsızlıq baş verib. Bizim özümüz də, Azərbaycan xalqı da 20 Yanvar hadisəsi kimi faciə yaşamışıq, imperiyanın haqsızlığı ilə üzləşmişik. Bir çox işğallara, terror aktlarına məruz qalan bir xalq kimi faciələr yaşamışıq. Biz haqsızlığın nə olduğunu bilən bir xalqıq. Hesab edirəm ki, Kərbəla hadisəsi də insanlıq üçün bir ibrətdir. Bu hadisə baş verməməli idi, özü də müqəddəs ailəyə qarşı. Ancaq baş verdi. Dini Komitədən edilən xəbərdarlığa gəlincə, deyim ki, bu qurum gözlənilən bəzi təhlükələrlə bağlı cəmiyyəti ayıq-sayıq olmağa çağırır. Bilirsiniz ki, dinin içində, müqəddəs amalların içində də məqsədli şəkildə siyasi qatqılar ola bilər. Yəni Azərbaycan dövlətinin əleyhinə təxribatlar törədən, ölkəmizdə ictimai-siyasi sabitliyi pozmağa cəhd göstərən müəyyən qüvvələr bu matəm mərasimlərindən istifadə etməyə cəhd edə bilərlər. Bəzi qüvvələr var ki, onlar bu kimi dini mərasimlərdən yararlanmağa, öz çirkin niyyətlərini, radikal düşüncələrini yaymağa çalışırlar. Bu qara qüvvələr bizim xalqımızı, dövlətçiliyimizi, ölkəmizdə mövcud olan tolerant mühiti sevməyən, qəbul etmək istəməyənlərdir. Bir ilahiyyatçı kimi fikrim belədir ki, heç bir vaxt peyğəmbərlərin, imamların adından, müqəddəs əqidə yolundan sui-istifadə etmək olmaz. Yəni Məhərrəmliyə bir siyasi çalar qatıb və hansısa bir mənfi missiyanı bu müqəddəs bayraq altında reallaşdırmaq nə Allaha xoş gedər, nə də dinimiz üçün qəbul edilən olar. Saflığın altında çirkin məqsəd həyata keçirmək qəbuledilməzdir. Məsələ burasındadır ki, bəzi radikal qüvvələr bu ilahi, mənəvi duyğudan sui-istifadə etmək niyyətinə düşürlər".

H.T.Hüseynli bildirdi ki, Əhli-Beytə sayğı, məhəbbət bəsləyən insanların reaksiyası şəffaf olmalıdır və heç bir təxribatı əks etdirməməlidir. Azərbaycan Respublikasında dinin dövlətdən ayrı olduğunu vurğulayan H.T.Hüseynlinin sözlərinə görə, bununla belə, milli-mənəvi dəyərlərin təbliğinə dövlət səviyyəsində böyük əhəmiyyət verilir və bu istiqamətə Prezidentin Ehtiyat Fondundan maliyyə dəstəyi verilir. "Respublikamızda mənəvi mühit çox azaddır. Bu azadlıqdan da istifadə etmək istəyən qüvvələr var. Hər şey çərçivəsində olmalıdır, həddi aşmadan. Fikrimi Qurani Kərimdən bir nümunə ilə yekunlaşdırmaq istəyirəm. "Həddi aşmadan, orta həddə"... Biz müqəddəs xalqıq və müqəddəs xalq kimi həmişə zülmə məruz qalmışıq. Allah bu zülmləri bizdən uzaq etsin" - deyə müsahibimiz vurğuladı.

***İradə SARIYEVA***

# Ermənilər məşhur Memar Sinana da murdar əllərini uzatdılar

**Vaqif Abışov:** *"Memar Sinanın erməni olmasına dair iddialar cəfəngiyyatdan başqa bir şey deyil"*

**Ermənilər dünyanın maddi-mədəni, mənəvi xəzinəsinə qənim kəsilən bir toplum olaraq mövcuddur. Dünyanın ən məşhur memarlıq abidələrindən, tarixi şəhərlərindən tutmuş, dünya çapında tanınan şəxsiyyətlərə qədər iddialarından çəkinməyən ermənilərin bu sərsəm xülyaları sərhəd tanımır.**

Türkiyənin məşhur Dolmabahçe abidəsinə də, Hindistanın dünyaca məşhur olan və türklər tərəfindən inşa edilən Tac Mahal abidəsinə, eləcə də Misir piramidalarına qarşı açıq iddia ortaya qoyan ermənilər indi də Türkiyə memarlığının atası hesab edilən Memar Sinanı erməniləşdirməyə cəhd göstərirlər.

Artıq xeyli müddətdir erməni ideoloqları Memar Sinanı "erməniləşdirmək layihəsi" üzərində baş sındırırlar. Lakin nə qədər cəhd etsələr də, heç bir tarixi sənəd onların xeyrinə hər hansı bir işarə belə göstərmir. Ermənilər bir çox ölkənin qapıları onların üzünə taybatay açıq olan arxivlərində nə qədər eşələnsələr də, Memar Sinanın "erməniliyinə" dair heç bir məlumat əldə edə bilmirlər. Memar Sinanın "erməni" olması iddiasını meydana atan və bununla da erməniləri aldadan Türkiyənin erməni yazar və tarixçilərindən olan Panos Dabağzadır. Sosial şəbəkələrdə yayılan məlumatlara görə, o özünün "Milleti Sadika" adlı kitabında Sinanın erməni, Ağırnasın sakinlərinin də büsbütün erməni olduğunu yazır. Heç bir tarixi sənədə istinad etməyən və tamamilə yalan iddialar üzərində qurulan kitabda vurğulanır ki, Sinan gənclik illərində yeniçəri olub, o, 20 yaşında islamı qəbul edib.

Memar Sinan haqqında mövcud olan məlumatların heç birində onun "erməni" olduğuna dair hər hansı bir eyham belə yoxdur. Böyük Memar Sinan Ağa Osmanlı memarıdır və Memar Sinan türk memarı olub dünyanın ən böyük memarlarından biridir. Məlumatlara görə, Sinanəddin Əbdülmənnan oğlu Yusuf (Memar Sinan) 1489-cu ildə Kayserinin Kesi nahiyəsindəki Ağırnas kəndində doğulub. Onu da qeyd edək ki, bəzi mənbələr onun bir xristian ailəsində dünyaya gəldiyini bildirir. Amma onun erməni ailəsində doğulduğu haqqında heç bir informasiya yoxdur.

Memar Sinan 17 iyul 1588-ci ildə İstanbulda vəfat edib. Ailəsinə və keçirdiyi həyat tərzi ilə bağlı bəzən yetərsiz, bəzən də ziddiyyətli məlumatlar müasiri Sai Mustafa Çələbinin onun dilindən yazdıqlarına, memarbaşı olduğu vaxtlardan qalan yazışmalara, özünün vəqfinə və yazarı bilinməyən mənbə və kitablara dayanmaqdadır.

Mənbələrə görə, Sinan I Səlim (Yavuz) sultan olduqdan sonra başlanan və Rumelidə olduğu kimi, Anadoludan da əsgər toplanmasını irəli sürən yeni bir təbiqata görə 1512-ci ildə İstanbula gətirildi. Orduya əsgər hazırlayan Əcəmi Oğlanlar Ocağına verilib, 1514-cü ildə Çaldıran döyüşündə, 1516-1520-ci illər arasında da Misir səfərlərində iştirak edib. İstanbula dönüncə Yeniçəri Ocağına qəbul olunub.

1-ci Süleyman Qanuni dövründə 1521-ci ildə Belqrad, 1522-ci ildə Rodos səfərlərinə qatılmış və zabit rütbəsi alıb. 1526-cı ildə qatıldığı Mohaç səfərindən sonra baş mühəndis olur. 1529-cu ildə Vyana, 1529-1532-ci illər arasında Almaniya, 1532-1535-ci illər arasında da İraq, Bağdad, Təbriz səfərlərində iştirak edib. Bu son səfər ərəfəsində Van gölündən keçəcək olan üç gəminin təmir işlərini müvəffəqiyyətlə yerinə yetirməsinə görə ona "haseki" ünvanı verilib.

536-cı ildə Pulya səfərlərinə qatılıb. 1538-ci ildə iştirak etdiyi Karabuğdan (Moldova) səfəri ərəfəsində Prut çayı üstündə inşa etdiyi bir körpü ilə hamının diqqətini öz üzərinə çəkir. Bir il sonra Əcəm Əlinin ölümündən sonra onun yerinə keçir, sarayın baş memarı olur. Ömrünün axırına qədər bu vəzifədə qalır.

Memar Sinan Osmanlı imperatorluğunun ən güclü olduğu dövrdə yaşayıb. I Süleyman (Qanuni), II Səlim və III Murad kimi üç böyük sultan zamanında baş memar olmuş, imperatorluğunun gücünü simvolizə edən şah əsərlərinin layihələşdirilib tikilməsində əsas rol oynayıb. Sənətdə təsiri ölümündən sonra da qalmış, hər zaman hörmətlə qarşılanıb.

1982-ci ildə İstanbuldakı Dövlət İncəsənət Akademiyasının bazasında qurulan yeni universitetə onun adı verilib. Sinanın bir memar kimi yetişməsi ilə alaqədar kifayət qədər məlumat olmasa da, dülgərliyi Əcəmi oğlanlar ocağında öyrəndiyi ehtimal edilir. Əcəmi oğlanlar başqa işlərlə bərabər memarlıq işləri ilə də vəzifələndirilirdilər. Sinan daha sonra orduda struktur ehtiyaclarını ödəyən vəzifələrdə işləmiş, buradakı işlərilə önə çıxıb. İstər orduda usta-şagird münasibətləri içində həyata keçirilən tikinti və təmir işləri, gərəksə orduyla getdiyi yerlərdə müşahidə etdiyi binalar Memar Sinanın yetişməsində əsas rol oynayıb.



*"Heç bir tarixi sənəddə bu dahi memarın erməni olduğuna dair bir işarə belə yoxdur"*

Müxtəlif mənbələrə görə, Sinan 84 cami (böyük məscid), 52 məscid, 7 məktəb və darulqurra, 22 türbə, 17 imarət, 3 daruşşəfa, 7 su kəməri, 8 körpü, 20 karvansaray, 35 köşk (bağça) və saray, 6 anbar və yeraltı anbar, 48 hamam olmaqla, adı çəkilməyənlərlə birlikdə üç yüz əllidən çox memarlıq əsəri yaradıb.

Mənbələrdə qeyd edilir ki, əlli ilə yaxın bir zaman Osmanlı imperatorluğunun baş memarı olmasına baxmayaraq, bütün bu abidələrin hamısını onun layihələndirib tətbiq etməsini söyləmək çətindir. Çoxu İstanbulda olmaqla yanaşı, imperatorluğun hər tərəfində yerləşən bu abidələrin bir qisminin tələbələri, yaxud da ona tabe olan memarlar qrupunun inşa etməsi də mümkün ola bilər. Bunların arasında təmir edilənlər də var. Bu cür rəqəmlər həm də Sinana olan hörməti göstərir. Onun əsl əhəmiyyəti abidələrində həyata keçirdiyi yeniliklərlə Osmanlı-türk memarlığını klassik zirvəsinə qaldırmasıdır.

Sinan baş memar olmasından öncə də qeyri-hərbi tikililər layihələndirib və tikib. Amma ilk əhəmiyyətli memarlıq əsəri İstanbuldakı Şahzadə (Mehmed) Camisidir. Özünün şagirdlik dövrü əsəri olaraq adlandırdığı bu cami dörd ayağın daşıdığı və dörd yarım günbəzin dəstəklədiyi bir günbəz ilə örtülüdür. Xarici bər-bəzəyin təsiri azaldılmış, içəridə isə daha işıqlı bir məkan yaratmaq yolu tutulub. Bundan sonra tikdiyi Üsküdardakı Mehrimah Sultan Camisində isə yarımçıq günbəzlərin sayı üçə endirilərək daha rahat bir daxili məkan ortaya qoyulub. Osmanlı-türk memarlığının ən mühüm abidələrindən biri Süleymaniyyə Camisi və külliyyəsidir. Sinan tələbəlik dövrü abidəsi adlandırdığı bu camidə İstanbuldakı Bəyazid Camisində istifadə olunan daşıyıcı sistemi yeniləmiş, dörd ayaq üstünə oturan günbəzi giriş-mehrab istiqamətindəki yarım günbəzlərlə dəstəkləyib.

Bu, Ayasofya ilə ortaya qoyulan strukturun onun tərəfindən bir daha ələ alınmasıdır. Süleymaniyyə, darulqurrası, daruşşəfası, hamamı, imarəti, altı mədrəsəsi, dükanları və Qanuni Süleyman ilə Xürrəm sultanın türbələrilə böyük bir sahəyə yayılmış şəhərsayağı bir tərtibatdır və türklərin dini tikililərdə ictimai xidməti də yerləşdirmələrinin bariz nümunəsidir.

Tarixçilər qeyd edirlər ki, Memar Sinan erməni olmayıb. O özü 1539-cu ildə Çələbi Lütfi Paşaya dediyi sözlərlə milli və dini kimliyini açıqlayıb: "Əslim rum, özüm müsəlman, ruhum türk, devri-şüurum osmanlı, qüdüssatım səlcuqlu, nübuvvatım hilaldır, əlhəmdüllah!". Hesab edirik ki, bu, ermənilər üçün çox kəsin bir cavabdır.

Azərbaycan Milli Elmlər Akademiyasının A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix elmləri dokroru Vaqif Abışov "Bakı-Xəbər"ə bildirdi ki, ermənilər bu cəfəng fikri ortaya atmaqla özlərinin saxtakar olduğunu bir daha aydın şəkildə göstərirlər. "Memar Sinanın erməni olmasına dair iddialar cəfəngiyyatdan başqa bir şey deyil. Heç bir tarixi sənəddə bu dahi memarın erməni olduğuna dair bir işarə belə yoxdur. O, müsəlman olduğunu və türk düşüncəsinə xidmət etdiyini özü qeyd edib, bu barədə tarixi mənbələrdə konkret məlumat var. Hansısa bir erməni yazıçısının uydurma, cəfəngiyyat dolu kitabı Memar Sinanı erməniləşdirə bilməz. Bütün dünya bilir ki, ermənilər özlərinə aid olmayan mədəniyyətləri, şəxsiyyətləri, eləcə də tarixi abidələri mənimsəməyə cəhd edirlər. Memar Sinan erməni olsaydı, bu barədə tarixi mənbələrdə hər hansı bir informasiya olardı. Ancaq belə bir məlumat yoxdur. Tac Mahalı "erməni abidəsi" kimi təqdim edən ermənilərdən hər şey gözləmək olar. Çünki onlar həmişə yalan danışırlar. Azərbaycan musiqisini, nağıl və dastanlarını oğurlayan, torpaqlarımızı işğal edən ermənilər başqa xalqların da mədəniyyətinə qənim kəsiliblər" - deyə V.Abışov qeyd etdi.

***İradə SARIYEVA***

# Rusiyaya yük və sərnişin daşıyan avtobus sürücüləri Gömrük Komitəsinə "od püskürdü" və cavablarını da aldılar

**Dövlət Gömrük Komitəsi Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsinin məlumatına görə, bu günlərdə sosial şəbəkələrdə yayımlanan videoreportajda Azərbaycandan Rusiya Federasiyasına sərnişin avtobusları ilə yük və sərnişin daşıyan bir qrup sürücü tərəfindən Dövlət Gömrük Komitəsinə qarşı əsassız ittihamlar irəli sürülüb.**




Həmin şəxslər Rusiya Federasiyasına gedərkən Şimal Ərazi Baş Gömrük İdarəsinin "Samur" gömrük postunda əsassız yoxlamalara məruz qaldıqlarını, gömrük-keçid məntəqəsində maneələrlə üzləşdiklərini və qarşılaşdıqları problemlərlə bağlı gömrük orqanlarına ünvanladıqları müraciətlərə əhəmiyyət verilmədiyini iddia edirlər.

Dövlət Gömrük Komitəsi bildirir ki, irəli sürülən iddialar əsassızdır və sürücülərə gömrük-keçid məntəqəsində maneələr yaradılması ilə bağlı fikirlər həqiqəti əks etdirmir.

Belə ki, sərnişindaşıma sahəsində fəaliyyət göstərdiklərinin deyən həmin şəxslər, əslində əksər hallarda qanunsuz ticarətlə məşğul olur, gömrük qanunvericiliyinin tələblərini pozurlar. Komitənin aidiyyəti qurumları tərəfindən həyata keçirilən gömrük nəzarəti zamanı sözügedən avtobuslarda dəfələrlə kommersiya təyinatlı mallar aşkar edilib. Qanunvericiliyə uyğun olaraq, sürücülərdən mallara dair sənədlər tələb olunsa da, onlar həmin malların sərnişinlərə aid olduğunu iddia edir və qanunlara əməl etməkdən yayınmağa çalışırlar. Üstəlik, həmin nəqliyyat vasitələrində əksər hallarda qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilməsinə cəhd göstərilən mallar aşkar edilib. Cari ilin aprel ayında bu nəqliyyat vasitələrindən birində gömrük orqanına bəyan olunmayan 660 kq heyvan mənşəli məhsullar, may ayında 1 kiloqrama qədər gümüşdən hazırlanan zərgərlik məmulatları, başqa bir nəqliyyat vasitəsindən isə iyun ayında 10000 ədəd siqaret aşkar edilərək götürülüb.

Mövcud qanunvericiliyə görə, ixrac edilən kommersiya təyinatlı mallar müvafiq sənədlərlə birlikdə gömrük orqanına rəsmən bəyan edilməlidir və istisnalar nəzərə alınmaqla, ixrac edilən mallara görə hər hansı rüsum nəzərdə tutulmur.

Sürücülərin müraciətlərinə gömrük orqanlarının etinasız yanaşmasına gəlincə isə, avqustun 19-da, yəni bir gün əvvəl saat 12:50-də 10-15 nəfərdən ibarət bir qrup şəxs Dövlət Gömrük Komitəsinin Vətəndaşların qəbulunun təşkili bölməsinə müraciət edib. Daxil olan müraciətə dərhal cavab verilib, saat 13:00-da 4 nəfərdən ibarət nümayəndə heyəti Komitənin səlahiyyətli şəxsləri tərəfindən dinlənilərək onlara sərhədkeçmə prosesində qarşılaşdıqları problemlərin səbəbi ətraflı izah olunub.

Gələcəkdə analoji halların baş verməməsi üçün həmin şəxslər qanunvericiliyin tələbləri barədə məlumatlandırılıb, daşıdıqları malların müvafiq sənədlərlə təmin olunmasının vacibliyi diqqətə çatdırılıb və onların sualları ətraflı cavablandırılıb.

**Lakin qəbulda olan nümayəndə heyətinin üzvlərinə verilən cavabı gözləmədən, Komitənin inzibati binasının qarşısındakı sürücülərdən bəziləri dırnaqarası media nümayəndələrinə gömrük orqanının və onun əməkdaşlarının fəaliyyətilə bağlı həqiqətə uyğun olmayan açıqlamalar veriblər.**

Dövlət Gömrük Komitəsi xatırladır ki, hər hansı fakta söykənmədən, rəsmi tərəfin mövqeyi öyrənilmədən gömrük orqanlarının fəaliyyətinə kölgə düşürən məlumatların yayımlanması yolverilməzdir və qanun qarşısında məsuliyyət yaradır.

# Davarın qiyməti hiss olunan qədər bahalaşır, ancaq sayı aydan-aya azalır - Azərbaycanda nə baş verir...

**Qoyunçuluq gəlirli sahədir. Ta qədimdən ənənəvi təsərrüfat sahəsi olan qoyunçuluqdan minlərlə heyvandar gəlir götürür, ailəsini saxlayır. Qoyun əti yüksək kaloriyə malikdir. Odur ki, ilboyu əhalinin istehlakında xüsusi yer tutur. Əti ilə yanaşı, dərisi, südü, yunu təsərrüfatların əlavə gəlir mənbəyi hesab olunur, xarici ölkələrdə emal, gön-dəri sənayesini ildən-ilə gücləndirir.**



***Vahid Məhərrəmov:** "Örüş sahələrinin əkinə yönəldilməsi, ilk növbədə, qoyunçuluğa ziyan vurdu"*

Qoyun həm də istehsal olunan məhsulun növ müxtəlifliyinə görə digər kənd təsərrüfatı heyvanları ilə müqayisədə üstündür.

Ancaq bütün bunlara baxmayaraq, Azərbaycanda ilbəil qoyunların sayında azalma müşahidə edilir. Belə ki, bu ilin iyul ayına olan məlumata görə, Azərbaycanda 8 milyon 542,7 min baş qoyun və keçi olub.

Rəsmi rəqəmlərə görə, qoyun və keçilərin sayı son bir ildə 1,2 faiz və ya 106,3 min baş azalıb. Belə ki, 2018-ci ilin iyul ayında ölkədə 8 milyon 649 min baş qoyun və keçi olub. 2017-ci ilin iyul ayında isə bu rəqəm 8 milyon 767,1 min olub.

Göründüyü kimi, statistik rəqəmlər xırdabuynuzlu heyvandarlığın ilbəil geriləndiyini göstərir. Baxmayaraq ki, qoyun ətinin qiyməti digər heyvanların əti ilə müqayisədə bahadır. Məsələn, mal ətinin bir kilosunun qiyməti 9-10 manat olduğu halda, qoyun əti 13-14 manata satılır.

Maraqlıdır, qoyunçuluq heyvandarlıqda gəlirli sahə olmasına rəğmən, bu sahəyə maraq niyə aşağıdır? Ölkədə qoyunların sayı niyə ilbəil azalır?

Sözügedən məsələyə aydınlıq gətirən kənd təsərrüfatı sahəsi üzrə mütəxəssis Vahid Məhərrəmov qoyunların sayının azalmasını əsasən örüş sahələrinin azalması ilə əlaqələndirdi: "Son illər 300 min hektar örüş sahələri, təbii biçənək əraziləri əkinə verildi. Nəticədə çoxsaylı fermer, kəndli heyvanlarını kəsimə vermək məcburiyyətində qaldılar. İndi onlar artıq heyvandarlıqla məşğul ola bilmirlər. Örüş və biçənək ərazilərinin bir hissəsi taxıl istehsalı, digər hissəsi isə pambıq əkini üçün istifadə edilir. O cümlədən, ərazilərin müəyyən hissəsi tez yetişən məhsulların istehsalı üçün istifadə edilir. Bütün bunlar heyvandarlığa çox böyük zərbə oldu. Ona görə ki, heyvandarlığı saxlamaq üçün möhkəm yem bazası yaradılmayıb. Bir sözlə, örüş sahələrinin əkinə yönəldilməsi, ilk növbədə, qoyunçuluğa ziyan vurdu. Bu səbəbdən ölkədə qoyunların sayı ilbəil azalır. Qurban bayramı zamanı xaricdən 17 min baş xırdabuynuzlu heyvan gətirildi. Hansı ki, həmin heyvanlar üçün xərclənən vəsait bizim fermerlərə, kəndlilərə çata bilərdi. Onların biznesini genişləndirə, sosial durumunu yaxşılaşdıra bilərdilər. Bir məqamı da qeyd edim ki, ölkədə həm iribuynuzlu, həm də xırdabuynuzlu heyvanlar cinsləşdirilib. Yəni yerli şəraitə uyğun daha məhsuldar cins heyvanlar mövcuddur. Yeganə çatışmayan məsələ yem tədarükü və örüş sahəsinin az olmasıdır. Müvafiq qurumlar bu istiqamətdə hər hansı bir addım atarsa, yemçiliyin inkişafına diqqət edilərsə, qoyunçuluğu kiçik ərazilər hesabına inkişaf etdirmək olar. Buna intensiv yol deyilir. Örüş sahələrində yemləmə, suvarma işi aparmaqla ciddi nəticələr əldə etmək olar".

*"Qurban bayramı zamanı xaricdən 17 min baş xırdabuynuzlu heyvan gətirildi"*

***Vidadi ORDAHALLI***

№ 146 (4044) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

22 AVQUST 2019-cu il

www.baki-xeber.com

# Spiker parlamentin iclasında deputatın 2 aylıq uşağına süd verdi

**Yeni Zelandiya Parlamentinin sәdri Trevor Mallard deputat Tamati Coffinin iclasa gәtirdiyi 2 aylıq oğluna butulkada süd verib.**

"Teleqraf.com" xәbәr verir ki, üç övladı olan Mallardın bu jesti sosial mediada rәğbәtlә qarşılanıb. Tutanekai adlı körpә günorta südünü parlamentin spikerinin qucağında içib. Trevor Mallard körpә ilә fotosunu "Tvitter" mikrobloqunda paylaşaraq kürsüdә VİP qonaq oturduğunu qeyd edib. O, yeni ata olan deputatı da tәbrik edib. Xatırladaq ki, parlament sәdri 2017-ci ildә deputat Villou Cin Praymın üç aylıq qızına da süd vermişdi.



## Dünyanın әn yaşlı tısbağası 121-ci ad gününü qeyd edib

Böyük Britaniya sakini Şeyla Floris bu günlәrdә özünün sevimli ev heyvanı - "Tommi" lәqәbli Aralıq dәnizi quru tısbağasının 121-ci ad gününü bayram edib. Hazırda "Tommi" dünyanın әn yaşlı ev heyvanıdır. "AZƏRTAC" bildirir ki, lәqәbinә baxmayaraq, "Tommi" dişidir. Oğlan adı ona sәhvәn qoyulub. "Tommi" 1898-ci ildә doğulub. Heyvanın 11 yaşı olanda hazırkı sahibәsi Şeyla Florisin nәnәsi onu bir funta alıbmış. Tısbağa hәyatı boyu iki dünya müharibәsi vә altı Britaniya kralı görüb. "Tommi"nin sahibәsinin hazırda 62 yaşı var. O, uşaqlıqdan qulluq etdiyi sevimli tısbağasının uzunömürlülük sirlәri barәdә bölüşüb. Şeylanın sözlәrinә görә, buna sәbәb bağçadakı alaq otlarından pәhriz vә sağlam yuxudur: tısbağa hәr dәfә yarım il qış yuxusuna gedәrәk aprel ayının әvvәllәrindә ayılır. Ancaq әn başlıcası, sahiblәrinin qayğısı vә sevgisidir. Şeyla Florisin sözlәrinә görә, mәhz bu sәbәbdәn heyvan möhkәm sağlamlığı ilә seçilir vә baytarın qәbuluna düşmәk ona heç vaxt nәsib olmayıb.



## "Windows"lu istәnilәn kompüterә müdaxilә üsulu tapılıb

**"Windows" sisteminin terminal xidmәtlәrindә cinayәtkarlara qurbanın kompüterinә tam müdaxilәyә imkan verәn kritik boşluqlar aşkar edilib.**

Sözügedәn boşluqlar "Microsoft"un әmәkdaşları tәrәfindәn tapılıb. "ICTnews" bildirir ki, cinayәtkar hücum nәticәsindә sistemә istifadәçidәn xәbәrsiz uzaq mәsafәdәn müdaxilә edir: haker bu mәqsәdlә serverә komanda vermәlidir. Aşkar edilmiş 2 boşluq "Windows" sisteminin bir çox versiyalarına, digәr 2 boşluq isә "Windows Server" vә "Windows 10" versiyalarına müdaxilә etmәyә imkan verir. "Windows XP" sistemi istisna tәşkil edir. Boşluqlar aradan qaldırılmadığı halda "NotPetya" vә ya "WannaCry" kimi tәhlükәli beynәlxalq virusların yayılmasında istifadә edilә bilәr. "Microsoft"un ekspertlәri bütün istifadәçilәrә korporasiya tәrәfindәn tәklif edilәn son yenilәmәlәri quraşdırmağı tövsiyә ediblәr.




## Rahat yatmaq vә yuxudan vaxtında oyanmaq...

**Vaxtında oyanmaq vә gün әrzindә enerjili olmaq üçün ilk növbәdә tam vә normal yuxu yatmaq lazımdır. Yuxu tam olmayanda oyanmaq heç dә asan olmur. Ona görә dә әn yaxşısı vaxtında yatıb vaxtında oyanmaqdır.**

Hәkim-terapevt Gülnarә Mәmmәdova bu barәdә "AZƏRTAC"a mәlumat verәrkәn deyib: "Yatmazdan әvvәl qәtiyyәn qida qәbul etmәk düzgün deyil, çünki, gecә boyu hәrәkәtsizlik vә dolu mәdә sәhәrki yorğunluğun әsasını qoyur.

Günün ikinci yarısı kofeinli içkilәr içmәk dә mәslәhәt görülmür. Sәhәr vaxtında oyana bilmәmәk gәrgin keçәn axşamın da nәticәsi ola bilәr.

Ona görә dә әsәbi olarkәn yatmazdan әvvәl 1 stәkan çobanyastığı çayı içmәk yuxuya çox yaxşı tәsir edir. Sәhәr tezdәn sәrt idman hәrәkәtlәri etmәmәk, әksinә, yüngül vә gimnastik hәrәkәtlәrlә günә daha rahat başlamaq olar".

**Elan**

Kristal Abşeron MTK-ya mәxsus torpaq sahәsi - 2, 26775 ha, seriya nömrәsi: RX 1002226, verilmә tarixi: 22.12.2016, qeydiyyat nömrәsi:1616019208 olan sәnәd itdiyi üçün etibarsız sayılır.

Mikayılova Mira Elmarovnaya Bakı Slavyan Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.




**Qoç** - İşlәrin yeni ritmi üçün tәkanları tәmin edәn dәyişikliklәrә izafi diqqәt gәrәkdir. Reaksiyanız iti olmalıdır. Əmәkdaşlığı dürüst planlaşdırın, görülәsi işi dәqiq paylaşdırın.


**Buğa** - İşlәr vә münasibәtlәr ciddi yanaşma tәlәb edir. İdeyanızı tәkmillәşdirәrәk reallıq ehtimalı yüksәk sәviyyәyә gәtirә bilsәniz, uğur qazanacaqsınız. Günün ikinci yarısında әldә edәcәyiniz mәlumat faydalı vә mәzmunlu olacaq.


**Əkizlәr** - Cari işlәrlә mәhdudlaşsanız da, mümkün qәdәr çox iş görmәyә çalışın. Sәliqәli çalışın, hәr işi sona çatdırın. Hәrәkәt aktivliyindә xeyir var. Amma әlavә işlәrin sayını artıraraq özünüzü yormayın.


**Xәrçәng** - Ətalәtli vә tәnbәl olmayın. Qәfil xәbәr, ideya, diqqәtin yeni detallara yönәlmәsi vә hәtta planlarda dәyişikliklәr ola bilәr. Yaradıcı insanlar, maraqlı ideyanı reallaşdırmaq istәyәn şәxslәr üçün yaxşı gündür.


**Şir** - Maddi perspektivlәr yaxşılaşır, imkanlar artır. Diqqәtli, sәliqәli vә qәtiyyәtli olun. Bir işi yarımçıq qoyaraq başqasına başlamayın. Prioritetlәri müәyyәnlәşdirin. Ehtiyac yaranarsa, hәmkar vә ya yaxınlarınızdan birini yardıma çağırın.


**Qız** - Mühüm olay vәd edәn gündür. Dәyişikliklәr vә ya fәaliyyәt obyektinin rekonstruksiyasına başlayın. Münasibәtlәrdәki yeniliklәr perspektivlәrinizә dә müsbәt tәsir edәcәk. Mәhsuldar tәrәfdaşlıq üçün yeni imkanlar yaranır.


**Tәrәzi** - Yaşam vә fәaliyyәtlә bağlı mövqelәrinizlә dünyagörüşünüzdә dәyişikliklәr etmәk zamanıdır. Yeni perspektivlәr var, hiss edirsiniz?! Hadisәlәrin axarı tәşәbbüs vә istәklәrinizdәn asılı deyil.


**Əqrәb** - Gün dәyişikliklәr vәd edir. Yaşam arealınızın keyfiyyәtini artırın. Artıq başladığınız işin rekonstruksiyası ilә mәşğul olun. Tәşәbbüsünüz bir neçә istiqamәtә yönәlmәlidir. Eyni vaxtda, fәrqli layihәlәrә qatılmaq olar.


**Oxatan** - Yeni işә başlamaq üçün әlverişli zamandır. Qıcıq, sәbәbsiz tәşviş, işlәrin cari vәziyyәti ilә bağlı narazılıq hisslәri yarana bilәr. Kiçik vә önәmsiz detallara izafi fikir verәrәk diqqәtinizi yayındırmayın.


**Oğlaq** - Yerinә yetirdiyiniz iş nәzәrdә tutduğunuzdan artıq vaxt tәlәb edә bilәr. Fәqәt, sizi maraqlandıracaq yeni nüanslar aşkarlanır. Əlavә işә başlamaq, unudulmuş planları xatırlamaq olar.


**Dolça** - İşdә rәhbәriliklә söhbәt vә problemlәrin müzakirәsi üçün әlverişli vaxtdır. Qarşılıqlı maraqlarınızın olduğu insanlarla tәmaslarda sәmimi olun, sirlәri gizlәmәyә çalışmayın.


**Balıqlar** - Yaşam arealınızın genişlәndirilmәsinә ehtiyac duyulur. Yaranan imkanlardan faydalanın. Sәfәr vә ya ezamiyyәt rutin hisslәrdәn qurtulmağınıza yardım edә bilәr.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*

## Boyundakı bu çökәyә buz qoyun, 10 yaş cavanlaşın

**Bu nöqdә boynun arxasında yerlәşәn çökәyin üzәrindәdir. Bәdәndә yeganә hissәdir ki, beyinә birbaşa tәmas var.**

Ona görә insan bu hissәdәn sәrt bir yerә dәyәndә beyni zәdәlәnir vә ölә bilir. Çin qәdim tibbindә bu nöqtәyә "Fen Fu" deyirlәr. "Medicina.az" bildirir ki, bu hissәyә kiçik buz parçası qoyduqda, qana endorfinlәr - cavanlıq, xoşbәxtlik hormonları sıçrayır. Metod belәdir: 2 smlik diametrdә buzu (soyuducuda buzdondurmaq üçün olan yuvalarda dondurmaq olar) hәmin nöqtәyә qoyub, gәzdirirsiz. 20-30 saniyәdәn başlayıb, növbәti günlәrdә 40 saniyәyә çatdırmaq olar. Əvvәlcә çox soyuq hiss edәcәksiz, sanki o nöqtә donmuş, keyimiş kimi, sonra isti axını olacaq. Buz әridikdәn sonra boynun arxasını dәsmalla silin. Proseduru hәftәdә 3 gün iki gün fasilә olmaqla tәkrarlaya bilәrsiniz. Bu metodun faydaları: Yuxu normallaşır. Əhval qalxır. Tonus yaxşılaşır. Mәdә-bağırsaq sistemi yaxşı işlәyir. İmmunitet möhkәmlәnir. Baş, oynaq ağrısı gedir. Bu nöqtә baş beyinin onurğa beyinә kecid etdiyi hissәdir. Burda tәnәffüs vә qan dövranı mәrkәzi yerlәşir. Ona görә bu nöqtәyә "Hәyat mәrkәzi" deyilir.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qәzet hәftәdә 5 dәfә çıxır. (Bazar vә bazar ertәsindәn başqa). «BZ»-dә çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.